

## Hərbi Qənimətlər Parkında 44-ün 1-i

9

Səs

№ 073 (6514) 27 aprel 2022-ci il. Qiymәti 60 qәpik

# "Tam əminəm ki, Azərbaycan daha da güclənəcək"

Dövlət başçısı İlham Əliyevin Sədrliyi ilə 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə səsləndirilən rəqəmlər cari ili də uğurla başa vuracağımıza böyük əminlik yaradır



4

# Ermənistan qan gölünə çevrilə bilər!



5

## MEDİA-da ATƏT-in media azadlığı üzrə nümayəndəsi ilə görüş keçirilib



5

## Makronun yenidən prezidentliyi Azərbaycana necə təsir edəcək?



10

## Aleksandr Şatilov: "Moskva İrəvanı Bakıya güzəştə sövq edəcək"

*Cari ilin may-iyun aylarında alternativ yolun açılışı gözlənilir*



15

## "Barselona" bu futbolçuya 1 milyard avro qiymət qoydu!



16

## Bakıda "Formula-1" yarışlarının keçirilməsinə CƏMİYYƏTİN BAXIŞI NECƏDİR?




7

# "Azərbaycanda COVID-19 ilə bağlı vəziyyət çox müsbətdir"

## *Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktorunu qəbul edib*



Prezident İlham Əliyev aprelin 26-da Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional direktoru Hans Henri Klugeni qəbul edib. Görüşdə Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatı ilə Azərbaycan Respublikası arasında səmərəli əməkdaşlığın olduğunu vurğulayıb. Dövlətimizin başçısı Ümumdünya Səhiyyə Təşkilatının COVID-19-a qarşı mübarizədə Azərbaycana göstərdiyi davamlı dəstəyə görə təşəkkürünü bildirib, ÜST-nin COVID-19-a qarşı mübarizəyə dair təqdim etdiyi tövsiyələrin ölkəmiz üçün dəyərli olduğunu qeyd edib. Prezident İlham Əliyev bildirib ki, Azərbaycanda COVID-19 ilə bağlı vəziyyət çox müsbətdir, həyata keçirilmiş tədbirlər nəticəsində pandemiyanın çətin dövründə vəziyyət nəzarətdə saxlanılıb. Azərbaycan keçən ilin əvvəlində vaksinasiyaya başlayan ilk ölkələrdən biri olub, indiyədək ölkəmizdə 13 milyondan artıq vaksin istifadə edilib. Azərbaycanda vaksinasiya prosesi anlayışla qarşılanıb. Dövlətimizin başçısı bunun vətəndaşlarımız tərəfindən dövlətin həyata keçirdiyi siyasətə etimadın bir nümunəsi olduğunu deyib.

Ölkəmizdə pandemiya ilə bağlı məhdudiyyətlərin tədricən aradan qaldırıldığını deyən Prezident İlham Əliyev bildirib ki, çox az sayda məhdudiyyətlər qalıb, bunu da Azərbaycan ictimaiyyəti anlayışla qarşılayır.

Azərbaycanın COVID ilə əlaqədar Ümumdünya Səhiyyə Təşkilatının fəaliyyətini daim dəstəklədiyini bildirən dövlətimizin başçısı vurğulayıb ki, həm Qoşulmama Hərəkatında, həm də BMT Baş Assambleyasında çıxışları zamanı Ümumdünya Səhiyyə Təşkilatının COVID-19-a qarşı mübarizədə rolunu xüsusilə qeyd edib.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycanda pandemiya nəticəsində yaranan sosial-iqtisadi məsələlərin aradan qaldırılması istiqamətində də dövlətimiz tərəfindən zəruri tədbirlər görülüb və hazırda bu sahədə də vəziyyət sabitdir.

Hans Henri Kluge Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusun salamlarını dövlətimizin başçısına çatdırıb. Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktoru kimi Azərbaycana ilk dəfə gəldiyini vurğulayan Hans Henri Kluge səfərinin Azərbaycanla BMT arasında tərəfdaşlığın 30 illiyinin qeyd olunduğu bir dövrə təsadüf etməsi baxımından önəmini vurğulayıb: "Mən Sizin beynəlxalq diplomatiyada qlobal liderliyinizi yüksək qiymətləndirir və bu münasibətlə Sizi səmimi qəlbdən təbrik edirəm. Sizin davamlı inkişaf istiqamətində çox mühüm fəaliyyətiniz olduqca önəmlidir. Çünki məhz Sizin şəxsi liderliyiniz sayəsində COVID-19 pandemiyasına qarşı beynəlxalq həmrəylik təbliğ edilib və bu məsələ BMT-dən sonra dünyanın ən böyük beynəlxalq təşkilatının - Qoşulmama Hərəkatının gündəliyinin əsas məsələsi olub".

Qonaq Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyinin bir il uzadılmasını dövlətimizin başçısına olan etimadın göstəricisi kimi dəyərləndirib və bu münasibətlə də təbriklərini çatdırıb.

Hans Henri Kluge Azərbaycanla əməkdaşlığın çox uğurlu olduğunu vurğulayıb və rəhbərlik etdiyi təşkilatın bu əməkdaşlığın bundan sonra da davam etdirilməsi istiqamətində səylər göstərəcəyini bildirib. O, Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupunun 2020-ci ilin mayında koronavirusla mübarizəyə həsr olunmuş onlayn Zirvə görüşünə toxunaraq, məhz Azərbaycan Prezidentinin rəhbərliyi sayəsində həmin Sammit zamanı ÜST-nin rolunun yüksək qiymətləndirildiyini vurğulayıb. Eyni zamanda, humanitar və tibbi ehtiyaclar üzrə informasiya bazasının yaradılmasına və ÜST vasitəsilə Qoşulmama Hərəkatının COVID-dən ən çox əziyyət çəkmiş 10 ölkəsinə Azərbaycanın 10 milyon dollar məbləğində vəsait yönəltdiyinə görə minnətdarlığını bildirib.

Qonaq dövlətimizin başçısının təşəbbüsü və rəhbərliyi ilə BMT Baş Assambleyasının COVID-19-la mübarizəyə həsr edilən Xüsusi Sessiyasını, Prezident İlham Əliyevin BMT-nin İnsan Hüquqları Şurası çərçivəsində, həmçinin BMT Baş Assambleyasında vaksinlərin ədalətli, bərabər bölgüsünə dair qətnamənin təşəbbüskarı olduğunu, Azərbaycanın Türk Şurası çərçivəsində Zirvə toplantısının gündəliyinə də COVID-ə qarşı mübarizə məsələsini daxil etdiyini diqqətə çatdırıb.

Hans Henri Kluge Azərbaycanın COVID-19-a qarşı milli səviyyədə həyata keçirdiyi tədbirlərin də çox təqdirəlayiq olduğunu bildirib, Azərbaycanda COVID-lə bağlı vəziyyətin daim nəzarətdə saxlanıldığını, dövlətimiz tərəfindən zəruri və ardıcıl tədbirlər görüldüyünü qeyd edib. O, həmçinin Azərbaycanın həyata keçirdiyi vaksinasiya siyasətinin də çox uğurlu olduğunu bildirib.

Hans Henri Kluge Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan ilə əməkdaşlığı bundan sonra da davam etdirmək niyyətində olduğunu deyərək, təşkilatın Azərbaycanda hazırda səhiyyə sistemində aparılan islahatlara yaxından töhfə verməyə hazır olduğunu diqqətə çatdırıb.

Hans Henri Kluge qeyd etdi ki, Azərbaycanın işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur bölgələrində həyata keçirəcəyi səhiyyə sisteminin qurulması prosesində, xüsusilə rəqəmsal səhiyyə sisteminin yaradılmasında Ümumdünya Səhiyyə Təşkilatı töhfəsini verməyə və Azərbaycan ilə yaxından əməkdaşlığa hazırdır. Vurğuladı ki, Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlıq çərçivəsində səhiyyə xidmətlərini təqdim edən regional mərkəzlərdən birinə çevrilə bilər.

# "Azərbaycanın Avropa İttifaqı ilə də əlaqələri uğurla inkişaf edir"

## *Prezident İlham Əliyev Latviyanın Baş nazirinin müavinini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Latviya Respublikasının Baş nazirinin müavini, müdafiə naziri Artis Pabriksi qəbul edib. Görüşdə Azərbaycan ilə Latviya arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu, yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd edildi. İqtisadiyyat, ticarət, investisiya, nəqliyyat sahələrində əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.***

Söhbət zamanı Azərbaycan-NATO əlaqələrinə toxunuldu, Prezident İlham Əliyevin ötən il NATO-nun Brüsseldəki mənzil-qərargahına səfəri, Baş katib Yens Stoltenberq ilə görüşü və Şimali Atlantika Şurasının iclasında çıxışı xatırlandı, Azərbaycanın NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasında iştirakı vurğulandı.

Görüşdə, eyni zamanda, Azərbaycanın Avropa İttifaqı ilə də əlaqələrinin uğurla inkişaf etdiyi bildirildi, bu baxımdan ötən il keçirilən Avropa İttifaqının Şərq Tərəfdaşlığının Sammitinin əhəmiyyəti qeyd edildi.

Qonaq ikinci Ermənistan-Azərbaycan müharibəsində əldə etdiyimiz Qələbə münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

# Misir səfiri: "Regionda sülhün bərqərar olması istiqamətində atılan addımları dəstəkləyirik"

Misir regionda gedən prosesləri yaxından izləyir. AZƏRTAC xəbər verir ki, bunu Misir Ərəb Respublikasının Azərbaycan Respublikasına yeni təyin olunmuş səfiri Hişam Mohamed Nağı Abdel Həmid jurnalistlərə müsahibəsində bildirib.




2020-ci ilin payızında Azərbaycanın inamlı Qələbəsi ilə bitən 44 günlük müharibədən sonra Azərbaycanla Ermənistan arasındakı bütün məsələlərin sülh yolu ilə həll edilməli olduğunu bildirən səfir ölkəsinin ərazilərin minalardan təmizlənməsi prosesini və sülhün bərqərar olması istiqamətində atılan addımları dəstəklədiyini deyib. Səfir paytaxt Bakı şəhərinin onda böyük təəssürat yaratdığını qeyd edib.

# Rusiya Azərbaycanla tərəfdaşlığa böyük önəm verir

*Prezident İlham Əliyev Rusiyanın Baş nazirinin müavinini qəbul edib*

**Prezident İlham Əliyev aprelin 26-da Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib. Dövlətimizin başçısı ölkələrimiz arasında ticari-iqtisadi sahədə qarşılıqlı fəaliyyətin yaxşı səviyyədə olduğunu qeyd edərək, daha əvvəl əldə edilmiş razılıqların yerinə yetirilməsindən məmnunluğunu bildirdi.**

Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının fəaliyyətinə toxundu və komissiyanın iclasında görülmüş işlərin nəzərdən keçiriləcəyinə, həmçinin ənənəvi əməkdaşlıq sahələrindən başqa potensial istiqamətlərin, o cümlədən ticarət və xidmətlərin həcminin daha da genişləndirilməsi məsələlərinin müzakirə ediləcəyinə, əməkdaşlıq üçün yeni sahələrin müəyyənləşdiriləcəyinə ümidvar olduğunu bildirdi.



Dövlətimizin başçısı Aleksey Overçukun ölkəmizə səfəri zamanı Rusiya-Azərbaycan-Ermənistan Baş nazirlərinin müavinlərinin sədrliyi ilə üçtərəfli komissiyanın fəaliyyətinin və ilk növbədə, nəqliyyat-kommunikasiya xətlərinin açılması məsələlərinin müzakirə ediləcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev bununla əlaqədar dəmir yolunun Azərbaycan ərazisində artıq 60 kilometrlik hissəsinin tikildiyini və gələn il tikintinin tamamlanacağını bildirdi. Avtomobil yolu ilə də bağlı Azərbaycan tərəfindən işlər qrafikə tam uyğun şəkildə aparılır. Əfsuslar olsun ki, Ermənistan tərəfindən bunlarla bağlı heç bir işə başlanılmayıb, Ermənistan öz ərazisindən keçməsi nəzərdə tutulan avtomobil yolu marşrutunun coğrafi koordinatlarını belə qeyd etməyib. Azərbaycanın bu məsələni dəfələrlə qaldırmasına baxmayaraq, Ermənistan tərəfindən bununla bağlı heç bir cavab gəlməyib.

Aleksey Overçuk Rusiya ilə Azərbaycan arasında bu il diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd edildiyini məmnunluqla xatırlatdı. Qonaq Azərbaycan və Rusiya prezidentləri tərəfindən imzalanan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"nin önəmini vurğuladı.

Görüşdə ticari-iqtisadi, nəqliyyat, tranzit, logistika, maliyyə, bank, energetika, neft-qaz sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu.

# Zəfər Qurultayı DÜNYA MEDİASINDA!

*Dünyanın aparıcı KİV-ləri Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının V Qurultayındakı nitqini geniş işıqlandırıb*

İtaliyanın aparıcı kütləvi informasiya vasitələri aprelin 22-də Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayını - Zəfər Qurultayını geniş işıqlandırıb. "Askanews", "Yahoo Notizie", "Kmetro0", "Agenzia Nova" kimi mətbuat orqanlarında dərc edilən yazılarda Azərbaycan Prezidenti İlham Əliyevin qurultaydakı geniş nitqindən sitatlara yer verilib. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayının Qarabağda keçirilməsinin əhəmiyyətini qeyd edərkən deyib: "Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir...".

Yazılarda Prezident İlham Əliyevin öz çıxışında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultayın 2001-ci ildə keçirildiyini xatırlatdığı və Ümummilli Liderin fikirlərini qeyd etdiyi bildirilib: "Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır". "Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik..", - deyə Prezident İlham Əliyev qurultay iştirakçıları qarşısında çıxışında vurğulayıb.

Dünya Azərbaycanlılarının V Qurultayı qardaş Türkiyə mediası tərəfindən də geniş işıqlandırılıb. Belə ki, Anadolu Agentliyi, "TRT AVAZ", "Haber Global", "TRT Haber" və digər telekanallar, "Sabah", "Hüriyyət" və s. qəzetlər, digər media quruluşları tərəfindən yayılan məlumatlarda Prezident İlham Əliyevin qurultaydakı dərin məzmunlu nitqinə geniş yer verilib.

Zəfər qurultayı barədə videomateriallar və fotolar yaymaqla növbəti dəfə Şuşadan Türkiyə ictimaiyyətinə ətraflı məlumat verən media qurumları diqqətə çatdırıblar ki, Prezident İlham Əliyev Ermənistana növbəti dəfə sərt xəbərdarlıq edib. Qurultayın tərkibinə xüsusi həssaslıqla yanaşan Türkiyə mediası yazır ki, dünya azərbaycanlılarının Şuşada bir araya gəlməsi Azərbaycan diasporunun gələcək fəaliyyətini dinamik inkişafda saxlamaq üçün mənəvi stimul rolunu oynayacaq.

Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Şuşada keçirilən V Qurultayındakı nitqi Gürcüstanın KİV-i tərəfindən geniş işıqlandırılıb. Belə ki, 24news.ge, aktual.ge və interpress.ge portallarında Azərbaycan Prezidentinin çıxışı Azərbaycan, ingilis, rus və gürcü dillərində yayımlanıb. Xəbərlərdə Azərbaycan Prezidenti İlham Əliyevin torpaqlarımızın erməni işğalından azad edilməsi istiqamətində görülən işlər, Gürcüstanda yaşayan soydaşlarımızın 44 günlük Vətən müharibəsindəki roluna verdiyi yüksək qiymət barədə fikirləri əksini tapıb. Dövlətimizin başçısının söylədiyi nitqlərdən gətirilən sitatlarda deyilir: "Bizim bütün işlərimizin, apardığımız siyasətin, atdığımız addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq dayanırdı. Biz buna öz gücümüzlə nail olduq".




Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının V Qurultayındakı nitqi Misirin nüfuzlu KİV-i tərəfindən geniş işıqlandırılıb. Misirin "Cümhuriyyə", "Əxbar Əl Yom" qəzetlərində, həmçinin "Əl Masriyə" və "Əl Diplomasi" portallarında Prezident İlham Əliyevin nitqindən əsas məqamların təqdim olunduğu dörd material dərc edilib.

Materiallarda qeyd olunub ki, Azərbaycan Prezidenti Qurultay iştirakçılarını şanlı Qələbə və ərazilərin düşməndən azad olunması münasibətilə təbrik edib, bu tədbirin adının Zəfər Qurultayı olmasını təbii hal kimi qiymətləndirib. O vurğulayıb ki, Azərbaycan xalqı bundan sonra müzəffər xalq kimi yaşayacaq. Dövlətimizin başçısı deyib ki, biz Azərbaycan xalqının böyük xalq olduğunu dünyaya sübut etdik və müstəqillik illərində vətənpərvərlik ruhunda yetişən gənclər Vətən uğrunda biləərəkdən ölümə gedirdilər.

# "Tam əminəm ki, Azərbaycan daha da güclənəcək"

## Dövlət başçısı İlham Əliyevin Sədrliyi ilə 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə səsləndirilən rəqəmlər cari ili də uğurla başa vuracağımıza böyük əminlik yaradır



Azərbaycanın düşünülmüş və məqsədyönlü siyasəti qazanılan uğurlarda özünün aydın ifadəsini tapır. Baxmayaraq ki, ölkəmiz 30 ilə yaxın dövrdə müharibə şəraitində yaşadı, hər sahədə təcrübəsi dünyaya nümunə oldu. Azərbaycan işğal altında olan torpaqlarını azad etmək üçün bu illər ərzində həm münaqişənin həlli üçün möhkəm hüquqi baza formalaşdırdı, həm də bütün sahələrdə davamlı uğurlara imza atdı. Azərbaycan beynəlxalq aləmdə iqtisadi inkişaf baxımından möcüzələr ölkəsi kimi tanınır və nüfuz qazanır. 2003-cü ildən bu gündək həyata keçirilən iqtisadi islahatlara diqqət yetirsək qeyri-neft sektorunun inkişafının prioritetliyi özünü aydın şəkildə büruzə verir. Dövlət başçısı İlham Əliyev 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə bu statistikanı diqqətə çatdırmışdır ki, ümumi daxili məhsulun 6,8 faiz artımı postpandemiya dövründə böyük nailiyyətdir. Qeyri-neft iqtisadiyyatı 10 faizdən çox artıb. Sənaye istehsalı sahəsində artım 4 faizdir. Qeyri-neft sənaye istehsalında 18 faizdən çox artım var. Xarici ticarət dövriyyəsi 60 faizdən çox artıb. İxracda təxminən iki dəfə artım var. Qeyri-neft ixracında 45 faiz artım mövcuddur. Xarici dövlət borcu azalıb. Keçən ilin aprelində xarici dövlət borcu ÜDM-in 18 faizini təşkil edib, hazırda cəmi 12,5 faizdir. Azərbaycan bir il ərzində xarici borcu təqribən 600 milyon dollardan çox aşağı salıb. Xarici ticarət saldosu cəmi üç ayda 5,1 milyard dollar təşkil edir. Dünyanın əksər ölkələrində saldo mənfidir.

### "ERMƏNİSTAN QONŞU ÖLKƏLƏRƏ OLAN MÜNASİBƏTİNDƏN ASILI OLACAQ"

"Biz heç vaxt bu işğalı unutmamalıyıq, erməni vəhşiliyini unutmamalıyıq. Eyni zamanda, onu da unutmamalıyıq ki, bu gün Azərbaycan güclüdür, Ermənistan zəifdir. Ermənistan tərəfinin davranışı da məhz bu amillərə söykənir. Biz real həyatda yaşayırıq və 1990-cı illərin əvvəlində Ermənistan tərəfindən bizə qarşı aparılmış etnik təmizləmə siyasətini, Xocalı soyqırımını, işğalı heç vaxt unutmamalıyıq, azərbaycanlılar kimi həmişə bizim yaddaşımızda olmalıdır. Məsuliyyətli insanlar kimi həmişə biz hər şeyə hazır olmalıyıq".Bu sözləri Azərbaycan Respublikasının Prezidenti aprelin 12-də bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə giriş nitqində deyib.

"Əlbəttə, gələcəyə baxdıqda, mən tam əminəm ki, Azərbaycan daha da güclənəcək. Bu gün digər məsələləri müzakirə edərkən bir daha Azərbaycan ictimaiyyəti bunu görəcəkdir. Ermənistanın isə inkişafı onun özündən asılı olacaq, Ermənistanın qonşu ölkələrə olan münasibətindən asılı olacaq. Çünki indi hər kəsə aydındır ki, Azərbaycanla və Türkiyə ilə əlaqələri normallaşdırmadan Ermənistan inkişaf edə bilməz və onların 30 illik işğalçılıq siyasəti onların özlərinə baha başa gəldi. Onlar real müstəqil ölkə olmaq şansını itirmişlər. Biz isə 30 il ərzində, - baxmayaraq ki, torpaqlarımız işğal altında idi, - tam siyasi və iqtisadi müstəqilliyə nail olmuşduq. Ona görə bu gün inamla və qürurla öz sözümüzü bütün kürsülərdə deyirik. Ona görə Ermənistan üçün bəlkə də bu, son şansdır. Ya ölkə inkişaf edəcək, ya da daha ağır vəziyyətə düşəcək. İnkişaf üçün də, bir daha demək istəyirəm ki, ilk növbədə, Azərbaycan və Türkiyə ilə əlaqələr beynəlxalq hüquq norma və prinsiplər əsasında normallaşmalıdır", - Prezident qeyd edib.

### "BİZ BU ÜÇ AYIN YEKUNLARINI KEÇƏN İL ƏLDƏ EDİLMİŞ UĞURLARIN DAVAMI KİMİ QİYMƏTLƏNDİRMƏLİYİK"

Dövlət başçısı vurğulayıb ki, Azərbaycanın malik olduğu imkanlar işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən bərpa və quruculuq işlərinin miqyasından da aydın görünür. Cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə tarixi Zəfərimizdən ötən dövr ərzində görülən işlərin və qarşıdakı dövrün hədəflərinin təqdimatı kimi dəyərləndirilir. Qələbədən sonra işğaldan azad edilmiş torpaqlarımızda aparılan bərpa və quruculuq işlərinin miqyası ölçüyəgəlməzdir. İnfrastrukturun yenilənməsi, bu ərazilərin elektrik enerjisi ilə təchizatının həyata keçirilməsi, yeni avtomobil yollarının çəkilişi, beynəlxalq stanartdara cavab verən Füzuli aeroportunun açılışı və bu il üçün Zəngilan Beynəlxalq Hava Limanının istifadəsinin nəzərdə tutulması, bunlarla bərabər Laçın hava limanının tikintisi, bu torpaqların malik olduqları su ehtiyatından səmərəli istifadə etmək üçün mühüm addımların atılması, şəhərlərin baş planlarına uyğun olaraq yaşayış komplekslərinin təməlinin qoyulması, sosial infrastrukturun bərpası və sair kimi tədbirlər, onların uğurlu nəticələri qarşıdakı dövrün aydın mənzərəsini yaradır.

### "KƏND TƏSƏRRÜFATI QARŞISINDA DURAN ƏSAS VƏZİFƏ BU SAHƏNİ YÜKSƏK TEXNOLOJİ SAHƏYƏ ÇEVİRMƏKDİR"

Son illərdə dövlət başçısı İlham Əliyev ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafını qarşıya prioritet məsələ kimi qoyub. "Kənd təsərrüfatı qarşısında duran əsas vəzifə bu sahəni yüksək texnoloji sahəyə çevirməkdir" söyləyən ölkə Prezidenti bildirib ki, ən müasir texnologiyalar tətbiq edilməlidir. Xarici mütəxəssislər cəlb edilməlidir. Ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcminin ildən-ilə daha da artırılması, daxili investisiyaların xarici investisiyaları üstələməsi ölkəmizdə sahibkarlığın inkişafına dəstəyin bariz nümunəsidir.Dövlət başçısı onu da vurğulayıb ki, biz bir neçə məqsədi güdürük: "Ölkə iqtisadiyyatını şaxələndirmək, idxaldan asılılığı azaltmaq, ixrac potensialını və kənd təsərrüfatı məhsullarının ixracını artırmaq. Hesab edirəm ki, biz kənd təsərrüfatı məhsullarının ixracını iki dəfə artıra bilərik. Bu, real hədəfdir, biz buna nail olmağa çalışmalıyıq". "Biz, əlbəttə ki, öz işimizi reytinq almaq üçün qurumuruq" söyləyən ölkə Prezidenti İlham Əliyev, eyni zamanda, bildirib ki, əlbəttə, belə fikirlər ortaya qoyulanda həm bizi daha da sevindirir, həm də dünyanın bizim maliyyə qurumlarına bir siqnaldır.Beləliklə, bütün bunlar onu deməyə əsas verir ki, bu siyasət davamlıdır, bunun üçün siyasi iradə və ölkənin kifayət qədər maliyyə imkanı var və ölkəmizdə sosial firavanlığın təminatı istiqamətində mühüm addımların gələcəkdə də davam edəcəyinə əminlik yaradır.

***Rəfiqə KAMALQIZI***

---

# Zəfər Qurultayının İNCƏ MƏQAMLARI

Torpaqlarımızın işğaldan azad edilməsindən, tarixi ədalətin bərpasından sonra dünya azərbaycanlılarını bir araya gətirən ilk qurultay məhz Zəfər Qurultayı oldu, bu da bir tarixi hadisə olaraq yaddaşlara, eyni zamanda Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə yazıldı. Ona görə qızıl hərflərlə yazıdı ki, Zəfər Qurultayı sözün əsl mənasında əhəmiyyəti ilə diqqəti cəlb etdi və bütün dünya azərbaycanlılarının bir daha bir araya gəlməsinə, davamlı olaraq birgə fəaliyyət göstərərək milli maraqlardan çıxış edilməsinə, Azərbaycan həqiqətlərinin bütün dünyada çatdırılmasına, ölkəmizin mənafeyinin qorunmasına daha bir güclü təkan oldu.

Dünya Azərbaycanlılarının V Qurultayının Zəfər Qurultayı adlandırılması da, bu qurultayın Şuşada keçirilməsi də təsadüfi deyildi. Bütün bunlar sözsüz ki, özündə rəmzi mənalar daşıyırdı və bunu təkcə azərbaycanlılar deyil, ümumlikdə dünya ictimaiyyəti də yaxşı başa düşür. Başa düşür ki, bu qurultay iştirakçılarının məhz Zəfər Yolundan keçərək Şuşaya toplaşması özü də çox dərin məna, böyük rəmzi məna daşıyır və bu o deməkdir ki, zəfər, qələbə Azərbaycan xalqınındır və biz öz qələbəmizi hər zaman fəxrlə qeyd edirik. Sözsüz ki, 65 ölkədən olan 400-dən çox diaspor nümayəndəsinin və qonağın iştirak etdiyi qurultayın əhəmiyyətindən danışdıqca bitən deyil. Bu qurultay bir çox istiqamətdə böyük əhəmiyyət kəsb edir və bunların bir neçəsi daha önəmlidir. Əvvəla, nəzərə almaq lazımdır ki, Qarabağ münaqişəsi artıq keçmişdə qalsa belə bu barədə infirmasiya müharibəsi davam edir və ermənilər çox hiyləgər addımlar atmaqdan heç çəkinən deyil. Bu baxımdan informasiya müharibəsində də qələbə qazanmağının olduqca önəmlidir. Elə bütün bunları nəzərə alaraq qeyd etmək lazımdır ki, bu önəmli, vacib işi layiqincə yerinə yetirmək üçün Zəfər Qurultayı əvəzsiz bir tarixi hadisə oldu, çünki Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında dünya azərbaycanlılarının rolu olduqca həlledici ola bilər və bu mənada qurultayın rolu danılmazdır.

Erməni vandalizmi və onun Qarabağdakı əyani izləri, Azərbaycanın başladığı yenidənqurma və bərpa işi, eləcə də ölkəmizdəki investisiya mühiti, Qarabağ və Şərqi Zəngəzurun potensialı barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılması olmaqla xüsusilə üç istiqamət üzrə informasiya dalğasına indiki halda böyük ehtiyac olduğu bir reallıqdır. Həm də çox əhəmiyyətlidir. Məhz bu baxımdan sözügedən qurultayın olduqca əhəmiyyətli olduğu zərrə qədər şübhə doğura bilməz. Çünki, dünya ictimaiyyətinin erməni vandalizmi ilə daha yaxından tanış olması da, işğaldan azad etdiyimiz ərazilərdə ölkəmizin yenidənqurma və bərpa işləri aparmasının çatdırılması da, Qarabağ və Şərqi Zəngəzurun potensialı barədə məlumatlandırılması da ən ümdə vəzifələrdəndir və məhz milli maraqlarımız hesab olunur. Təsəvvür edək ki, ən azı 65 ölkədə hakimiyyət, elm, media, biznes və digər mühüm dairələrlə təmasda olan həmvətənlərimiz bu məlumatları daha geniş auditoriyaya çatdırmış olduqları halda bu, ölkəmizin həqiqətlərinin, yaratdığı reallıqların necə sürətlə yayılmasına təkan verəcək. Əlbəttə ki, xaricdə yaşayan azərbaycanlılar böyük qüvvə hesab olunur və məhz azərbaycançılıq ideyasının daha da vüsət alması üçün onların rolu danılmazdır. Bu baxımdan da onların fəaliyyəti dövlətimizin daha da güclənməsi deməkdir və şübhəsiz ki, bu fəaliyyətə daha böyük hərəkətverici stimulun da Zəfər Qurultayı olduğu heç kimdə şübhə doğura bilməz.

Daha bir incə məqama diqqət etmək lazım gəlir və bu da ondan ibarətdir ki, qurultay işini postmüharibə dövründə Azərbaycan Diasporunun qarşısında duran vəzifələr, fəaliyyət planı, yol xəritəsi, Qarabağın bərpası və yenidən qurulmasında Azərbaycan Diasporunun töhvələri mövzusundan panel iclasları ilə davam etdirmiş oldu və bu məqam da məhz Zəfər Qurultayının milli maraqların daha da möhkəm qorunmasına, müdafiə edilməsinə töhvə verəcəyini təsdiqləyir. Xüsusilə qurultayın Şuşada keçirilməsi daha bir mesajdır və bu, Şuşanın Azərbaycana məxsus olması mesajıdır. Zəfər Qurultayının keçirilməsi üçün Azərbaycanın Mədəniyyət Mərkəzi olan Şuşanın seçilməsi həmçinin böyük bir addımdır və onu göstərir, onu bəyan edir ki, bu mədəniyyət Azərbaycana, Türk dünyasına məxsusdur. Xüsusilə bu mesaj həmin mədəniyyəti yox etmək, yaxud mənimsəməyə cəhd etmək istəyənlər üçün olduqca təsirli oldu və işğalçılığı dövlət siyasəti kimi qəbul edənlər bu həqiqətlər qarşısında çarəsiz olduqlarını yaxşı başa düşürlər.

Cəsarətlə deyə bilərik ki, Zəfər Qurultayı qarşıda duran milli hədəflərimizin təsbit edilməsi istiqamətində əvəzsiz bir hadisə oldu. Çünki, bu qurultay daha güclü bir Azərbaycan dövləti görmək istəyənlər üçün geniş imkanlar açdı. Regiaonda və dünyada sözü eşidilən bir ölkə kimi bundan sonra da uğurlara imza atmağımız üçün Zəfər Qurultayı əlamətdar hadisə kimi yadda qaldı. Ölkəmizin yaratdığı reallıqların bütün dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın, eləcə də regionun, xüsusilə işğaldan azad edilən ərazilərin potensialı barədə məlumatlandırma hər zaman öz aktuallığını qoruyur və bu baxımdan da sözügedn qurultay hər birimiz üçün xüsusi önəm kəsb edir.

Onu da diqqətə çatdırmaq yerinə düşərdi ki, qloballaşmanın ciddi vüsət aldığı bir məqamda milli identifikasiyanın qorunması olduqca vacib şərtdir və bu mənada da Zəfər Qurultayı çox əhəmiyyətli oldu. Əvvəla, qurultayın Şuşada, Azərbaycanın Mədəniyyət Mərkəzində keçirilməsi mədəniyyətimizə bağlılığımızı təsdiq edir. Digər tərəfdən də bu məqam, bundan sonrakı nəsillərə də öz mədəniyyətinə bağlı olmasını tövsiyyə edir. Mədəniyyətimizin unudulmayacağına, qorunacağına əminliyimizi bəyan etməyimiz baxımından da bu qurultay xüsusən əhəmiyyətli sayılır və bizə aid olanı, bizim mədəniyyətimizi bundan sonra kimsənin oğurlamaq arzusunun ürəyində qalacağını təsdiqləyir.

***İnam Hacıyev***

# Ermənistan qan gölünə çevrilə bilər!

**İndiki şəraitdə Putinlə sadəcə görüş faktı Qərbin Ermənistana münasibətinə son dərəcə mənfi təsir göstərir. Bu münasibət barədə ermənilər də yaxşı bilirlər, elə ruslar da. Hətta hərdən elə gəlir ki, ruslar Qərbə göstərmək, Ermənistanın da məhz Qərbdən əl-ayağını, eləcə də ümidlərini kəsmək üçün görüş təşkil edirlər. Sözsüz ki, bu görüş çağırışlarından imtina edə bilməyən, buna gücü çatmayan Ermənistan, eləcə də bu ölkənin hakimiyyəti və ümumlikdə erməni xalqı beləliklə Qərblə çox az qalan münasibətlərinin də tamamilə yoxa çıxacağını yaxşı başa düşür. Bununla belə çıxış yolu tapa, hansısa yolu seçə bilmir və bu da ölkəni tez bir zamanda uçuruma tərəf aparır.**

Belə məlum oldu ki, Rusiya və Ermənistan nasizmə qarşı birgə mübarizə haqqında razılığa gəliblər. Hətta bu barədə Rusiya prezidenti Vladimir Putinlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında danışıqların yekunlarına dair birgə bəyanatda deyilir. Maraqlıdır, nasizmi törədən kimdir? Elə nasizmi, faşizmi, separatçılığı və terrorçuluğu törədən, mövcudluğu dövründə ancaq işğalçı siyasəti yürüdən Ermənistan deyilmi? Heç Rusiya da Ukraynada törətdiklərinin fonunda son zamanlar bu işğalçı ölkədən geri qalmır və görəsən indi kim kimə qarşı mübarizə haqqında razılığa gəlir? Ermənistanın öz nasizminə qarşı birgə mübarizə aparılacaq, yoxsa başqa hansı nasizmdən söhbət gedə bilər? Təbii ki, bütün bu suallardan aydın görünür ki, sözügedən iki ölkənin gəldiyi razılıq gülünc səslənir və hətta ilk baxışdan çox absurd görünür.

Göründüyü kimi, Rusiya ilə Ermənistan arasında nasizmə qarşı mübarizə haqqında razılığın mahiyyətinin nə olduğu dərhal ortaya çıxır. Bu razılıq deyilən formal məsələnin ümumiyyətlə nə olduğu hamıya bəllidir. Xüsusən Ukraynada törədilənlərin, müharibənin fonunda Rusiyanın Ermənistanla belə bir qazılığa gəlməsi, nasizmə qarşı mübarizə haqqında razılıq imzalaması Qərbi özündən çıxarmaya bilməz. Onsuz da Rusiyaya qarşı olduğunu bu zamana qədər də Qərb açıq-aşkar biruzə verirdi. İndi üstəlik Ermənistanla guya nasizmə qarşı razılığa gəlməsi məsələnin daha da kəskinləşməsi deməkdir. Özü də bu dəfə Ermənistan üçün. Belə baxanda Rusiyaya qarşı sanksiya tərbiq edənlər üçün Ermənistan nə problemdir və bu xırda bir ölkəyə, onun marionet baş nazirinə təzyiq və təpki daha sadə, daha bəsit addım sayılır. İndi ermənilər özləri yaxşı başa düşürlər ki, Rusiya ilə haqqında qeyd olunan razılıqdan sonra Qərbdəki, xüsusən də ABŞ və Böyük Britaniyanın siyasətçiləri Ermənistana siyasi və iqtisadi təzyiq göstərmək üçün çox konkret addımlara keçə bilərlər. Bu isə onsuz da yoxsulluq içərisində olan rəzil bir ölkə üçün acınacaqlı sonluq deməkdir. İndi Rusiya üçün tətbiq olunan sanksiyalara bəlkə də ruslar müəyyən bir müddət səbr nümayiş etdirə bilərlər, amma bunu ermənilərdən gözləmək mümkün deyil və əgər Ermənistan Qərb tərəfindən hədəfə alınsa, ermənilər bu şəkildə də sıxıntılara məruz qalsalar bu işğalçı ölkədə dərhal vətəndaş müharibəsi reallaşar. Elə bu ölkənin hakimiyyətinin də kürkünə birə salan budur, amma Rusiyanın əmrindən də çıxmaq onlar üçün mümkünsüz sayılır.

"Biz irqçilik, ksenofobiya, neonasizmin istənilən təzahürlərinə, habelə milli, dil və ya dinə görə ayrı-seçkiliyə, o cümlədən Rusiyada və Ermənistanda yaşayan vətəndaşların və həmvətənlərin hüquq və qanuni maraqlarına toxunan ayrı-seçkiliyə qarşı səyləri artırmağa razılaşdıq", deyə Kremlin mətbuat xidməti də məlumat yayıb. Yenə də bir neçə sual ortaya çıxır. Əvvəla milli, dil və dinə görə ayrı-seçkiliyə kim yol verir? Görəsən ruslar bilmirlərmi ki, etnik təmizləmə siyasəti elə ermənilərin, Ermənistanın öz siyasətidir? Azərbaycanlı olduqlarına görə qətlə yetirilənləri ermənilər tərəfindən qətlə yetirilməmişdimi? Xocalı soyqırımı məhz etnik təmizləmənin, milli, dil və ya dinə görə insanların həyatlarına son qoyulmasının təzahürü deyildimi? Yaxud, öz ata-baba yurdlarından insanların didərgin salınması vətəndaşların haqq və hüquqlarına, qanuni maraqlarına toxunan qanunsuzluqlara yol verilməsi ermənilərin öz işləri olmadımı? Elə isə kimlər hansı səylərdən dəm vururlar axı? Guya ki, separatçı ermənilər bütün bu sadalananların onlara aid olduğunu unudublar, yaxud belə bir vaxtda bu şəkildə ruslarla razılıq imzalamalarına Qərbin susqunluq nümayiş etdirəcəyinə ümid edə bilərlər? Xeyr. Belə bir arzuları da ola bilməz və özləri də yaxşı bilirlər ki, başlarında çatlayacaq hələ çox şeylər var və bunun günahkarı da özləridir.

Doğrudur, nasist Almaniyasında olan faşizmin yolverilməzliyindən danışılır və bu heç də pis deyil. Əlbəttə ki, dünyanın müxtəlif ölkələrində on milyonlarla insanın həyatı bahasına dünyanı fəlakətə sürükləyən məhz nasizm olub. Məsələ burasındadır ki, əvvəla indiki mərhələdə bütün dünya Putinin rəhbərlik etdiyi Rusiyasını Hitler Almaniyasının prototipi kimi görür və qəbul edir. Bir sözlə, Ukraynada müharibəyə başlayan və saysız-hesabsız insan tələfatına, yaşayış məntəqələrinin dağıdılmasına səbəb olan ölkənin nasizmə qarşı razılıq imzaladığı dünya üçün qəbuledilən deyil. Digər tərəfdən, Rusiya kiminlə nasizmə qarşı razılığa gəlir, nasist və faşist Qaregin Njdenin heykəlini ölkəsinin paytaxtında ucaldıb, sonra bununla da faşizmi təbliğ edən ölkə iləmi? Bu razılığa bütün dünyada həqiqətlərdən xəbəri olan bir nəfər belə inana bilərmi? Əlbəttə ki, inana bilməz və heç Qərbin də belə bir niyyəti də yoxdur. Əksinə, Qərb Rusiyanı bəşəri cinayətlərdə, nasizmdə, işğalçılıqda günahlandırır və bu halda Ermənistanı özü ilə bir cərgədə görmək istəyən Rusiya bu işğalçı ölkəni də uçuruma sürükləyir. Eyni ilə cəhənnəmə gedən özünə yoldaş axtardığı kimi. Yəni, reallıqlar onu deməyə əsas verir ki, indiki şəraitdə Ermənistan özü də bəşəriyyətə qarşı cinayətlərə görə beynəlxalq məhkəməyə verilə bilər. Putinlə görüş faktı bu məsələni sürətləndirə bilər ki, indi ermənilərin yuxusunu ərşə çəkən də budur. Putinin isə bu heç vecinə də deyil və ermənilərin, Ermənistanın hansı hala düşə biləcəyi onun maraqlı ola bilməz, onun öz maraqları var. Hələ bəlkə də bu, Rusiyanın Ermənistana "qulaq burması" da ola bilər. Təkcə bu addım, Qərbin qəzəbinə səbəb ola bilər ki, bu da Ermənistanı qana bulayar. Rusiyaya sanksiyalardan yan keçməyə kömək etmək üçün çalışan ölkələr sırasına yazıla bilən Ermənistanı nələr gözlədiyini ermənilər özləri hamıdan yaxşı təsəvvür edirlər. Bu artıq Ermənistana qarşı sanksiyaların mükəmməl şəkildə tətbiqi deməkdir ki, buna ermənilər davam gətirə bilməzlər. Nəticə isə qarşıdurma, dərhal da vətəndaş müharibəsi deməkdir ki, bu zaman hakimiyyət zəifliyindən, yaxud hakimiyyətsizlikdən istifadə ölkənin qan gölünə çevrilməsinə gətirib çıxarar. Təbii ki, dəfələrlə Qaregin Njdeni Hitlerlə bərabər tutan Mariya Zaxarova belə Ermənistanın, yaxud ermənilərin nasizmə qarşı mübarizəyə qoşulması barədə razılığına inana bilməz. Belə olan halda Qərb nə düşünməlidir və inana bilərmi? Ümimiyyətlə, Rusiya ilə toqquşan qüvvələrin onunla razılığa gələn ölkəni istədiyi şəkildə cəzandıracağı anonsu həqiqətə daha yaxın deyilmi, nəinki Ermənistan kimi işğalçı ölkənin nasizm əleyhinə mübarizəsi?

***İnam Hacıyev***






## MEDİA-da ATƏT-in media azadlığı üzrə nümayəndəsi ilə görüş keçirilib

26 aprel tarixində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində İcraçı direktor Əhməd İsmayılov Azərbaycanda səfərdə olan ATƏT-in media azadlığı üzrə nümayəndəsi Teresa Ribeiro ilə görüşüb. SİA-nın verdiyi məlumata görə, Əhməd İsmayılov ölkəmizdə media sahəsində həyata keçirilən islahatların gedişatından danışıb. O, "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 yanvar tarixli Fərmanının müvafiq sahədə islahatların yol xəritəsi olduğunu vurğulayıb. Fərmandan irəli gələrək normativ hüquqi bazanın yenilənməsi və təkmilləşdirilməsi, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin peşəkarlığının, məsuliyyətinin və cəmiyyətin media savadlılığının artırılması istiqamətində görülən çoxşaxəli və kompleks tədbirlərin mahiyyəti və əhatə dairəsindən bəhs edilib.

İcraçı direktor qonağın diqqətinə çatdırıb ki, bu il fevralın 8-də Prezident İlham Əliyev "Media haqqında" Qanunun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə fərman imzalayıb. Bildirib ki, Qanunun məqsədi yerli medianın inkişafına təkan verilməsi, informasiya mühitinin sağlamlaşdırılması və rəqabət qabiliyyətinin artırılması, habelə Azərbaycanda jurnalist peşəsinin nüfuzunun yüksəldilməsinə şəraitin yaradılmasıdır.

Teresa Ribeiro Azərbaycanda media sahəsində aparılan islahatlar və "Media haqqında" Qanun barədə ətraflı məlumatın təqdim edilməsinə görə təşəkkürünü bildirib, islahatlarla bağlı fikirlərini bölüşüb. Görüşdə bəhs olunan məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

# Təhsil, yoxsa onu çökdürən rüşvət?

**Dünyanın ən vacib peşələrindən biri olan müəllimlik müxtəlif mərhələlərdən keçərək günümüzə gəlib çatıb. Hər bir sivilizasiya bu peşəyə mühüm töhfələr vermiş, onun inkişafına və tərəqqisinə şərait yaratmışdır. Məsələn, "qədim sivilizasiyalarda müəllimlik" deyəndə ağlımıza ilk çağlarda həyatda qalmaq üçün müxtəlif alətlər hazırlayan və onlardan istifadə qaydalarını bir-birinə öyrədən insanlar gəlir. Digər tərəfdən, valideynlər uşağa ilk məlumatı öyrətdikləri üçün onların ilk müəllimləridir.**

Şumerlərdə və Qədim Misirdə təhsilə və müəllimlik peşəsinə böyük əhəmiyyət verilirdi. Buddist Çin və Hindularda da müəllimin xüsusi yeri var idi. Məsələn, Konfutsi



Çin tarixində ən fədakar müəllim kimi tanınır. Konfutsinin fikrincə, əgər insan daim yeni biliklər əldə etməklə köhnə biliklərini təkmilləşdirməyə çalışırsa, o insan başqalarının müəlliminə çevrilə bilər. Bu dövrdə Platon "Müəllimlik Tanrının peşəsidir" deyir.

Müəllimlik bir elmi peşəyə çevirmiş insanlara verilən addır. Müəllimlər təhsil müəssisələrində çalışan, şagirdlərə dərs deyən insanlardır.



Müəllim sənət növünü tələbələrə texniki yolla izah etməyi peşəyə çevirmiş şəxsdir. Onlar bilik öyrətmək üçün çalışan və daima özlərini təkmilləşdirməyə ehtiyacı olan fərdlərdir.

Romanın yüksəlişi dövründə əksər imperatorlar müəllimlərə xüsusi hörmət bəsləyirdilər. Orta əsr xristian dünyasında ruhanilər Müəllim rolunu öz üzərinə götürdülər. Səlcuqlularda və Osmanlılarda müəllimlərə böyük əhəmiyyət verilirdi. Yəni İslamda tədrisin böyük əhəmiyyəti var idi.

Qərbdə ilk müəllim məktəblərinin 1800-cü illərdə yaranıb. Türkiyədə ilk müəllim məktəbi 1848-ci il martın 16-da Darülmuallimin adı ilə açılıb.

Müəllim ilk növbədə özünü dəyərli gör-



məlidir. O, müəllimliyə yaşadığı cəmiyyət və bəşəriyyət üçün müqəddəs bir iş kimi baxmalıdır. Müəllimliyə sadəcə bir peşə ki-



mi baxmaq olmaz. Müəllimlik həyat tərzidir. Çünki bu peşə çoxşaxəlilik tələb edən peşədir.

Müəllim öz bədii tərəfi ilə şagirdinin şəxsiyyətini istiqamətləndirə bilər. Müəllim öz biliyi, təcrübəsi ilə yaxşını, həqiqəti, gözəli uşaqlara, gənclərə göstərməyə çalışmalıdır. Bir sözlə, biz müəllimi sivilizasiyanın banisi, mədəniyyət daşıyıcısı, planlayıcısı, tədqiqatçısı kimiadlandıra bilərik.

Müəllimlər üçün, hər yeni gün tələbələrlə yeni bir yolun başlanğıcıdır. Hər yeni günə yeni ümidlərlə başlayırıq. Müəllim məxfi bir qəhrəmandır.

Müəllimlik sevgi peşəsidir. Maddi qazancı az, mənəvi gəliri çox olan bir peşədir. Müəllimlərin ən böyük mükafatı gələcək illərdə də onların yolunu uğurla işıqlandıracaq tələbələrdir.

Müəllimlər atdığı hər addımda, aldığı hər nəfəsdə müəllim olduğunu unutmadan hərəkət etməlidir. Lakin təəssüflər olsun ki, günümüzdə kifayət qədər bu şərəfli ada ləkə gətirən "müəllim"lər də var. Kifayət qədər müəllim şagirdi və ya tələbəni gəlir mənbəyi olaraq görür, rüşvət alır. Bəs bu halların qarşısı necə alınmalıdır? Hansı mübarizə yolları var? Məsələnin hüquqi yanaları nələrdir? Nümunəvi müəllim necə olmalıdır? SİA mövzu ilə bağlı araşdırma apararaq hüquqşünas və ekspertlərin fikirlərini öyrənib.

**Təhsil eksperti Elçin Əfəndi:** "Təəssüflər olsun ki, məktəblərdə rüşvət məsələsi həmişə var və yenə də davam edir. Vəziyyət demək olar ki, biabırçı durumdadır. Yəni, məktəb rəhbərliyi və ya müxtəlif şəxslər tərəfindən konkret rüşvət tələb olunur, ödəniş yığılır və əvvəllər bu daha çox yayılmırdı. Çünki informasiya texnologiyaları bu qədər inkişaf etməmişdi. İndi isə "What-



sAap" qruplarda direktor birbaşa artıq bildirir ki, bu qədər ödəniş ödəməlisən, rüşvət verməlisən.

Azərbaycanda kimsə bunu danmır ki, korrupsiya faktı yoxdur. Var və buna qarşı mübarizə də aparılır. Amma təəssüflər olsun ki, nazirliklər səviyyəsində aparılan ümumi işlər bəzi şəxslər üçün təsir etmirmiş kimi yenə də öz işlərini görürlər.

Məktəblərdə rüşvətin yığılması, üstəlik də şagirdlərdən bu ödənişin yığılması yolverilməzdir, müəllimlərdən ümumiyyətlə alınması yolverilməzdir. Yəni, dövlət tərəfindən onsuz da təhsil müəssisələri maliyyələşdirilir, dövlət tərəfindən müvafiq ödənişlər ayrılır. Bir də bunun üzərindən direktorun hər hansı bir rüşvət alması dəhşətdir. Həmin direktoru ümumiyyətlə vəzifədən çıxarmaq lazımdır. Əli pula öyrəşən istənilən direktoru işindən çıxarmaq lazımdır. Bu hallara qarşı yeganə ən doğru mübarizə yolu budur".

**JEM sədri Ceyhun Musaoğlu:** "Son dövrlər məktəblərdə rüşvət məsələsi kimi hadisələr tez-tez baş verir. Bunların içərisində həm müəllimlər, həm də məktəb direktorlarının valideynlərdən pul tələb etməsi çox geniş yayılıb. Bu həmişə olacaq. Bu



nə rüşvət, nə də korrupsiya sayılır. Əslində bunlar ürəkbulandırıcı hadisələrdir. Lakin nə hüquqi, nə də mənəvi o qədər də mənfi təsiri yoxdur.

Belə hadisələrə bundan sonra ona görə rast gəlinəcək ki, valideynlər məktəbə ayaq açıblar. Mən bunu qəbul edə bilmirəm. Sovet dövründə valideynlə məktəb arasında böyük məsafə var idi. Valideyn məktəbin heç həyətinə gələ bilməzdi. Uşağın valideyni də, tərbiyəçisi də, elm verəni də müəllim idi. İndi valideyn komitəsi filan var. Valideyn gəlir məktəbin içərisinə və hətta dərsdə oturur. Valideynlərin "WhatsApp" qrupları var. Bütün bunlar xaotik bir mənzərə yaradır.

Məktəb çərçivədə olmalıdır. Bütün bunların kökündə məktəblə valideynin yaxınlaşması dayanır. Valideynlə müəllimlərin yaxınlığını təşviq edirlər. Problemin də kökündə ziddiyyət yaranır. Düşünürəm ki, problemin həlli üçün ziddiyyət aradan qaldırılmalıdır".

***Ayşən Vəli***

## "Ermənistan tərəfi destruktiv və pozucu hərəkətlərindən əl çəkmir"

**POLİTOLOQ AÇIQLADI**

**"Təəssüflər olsun ki, Ermənistan tərəfi destruktiv və pozucu hərəkətlərindən əl çəkmir". Bu sözləri SİA-ya açıqlamasında politoloq İlqar Vəlizadə deyib.**

Onun sözlərinə görə, ermənilərin törətdiyi son təxribat da bunu göstərir: "Təxribatın əsas məqsədi sərhədlərin delimitasiya və demarkasiya üçün komissiyanın yaradılması ilə bağlı işlərə müəyyən kölgə salmaq idi. Digər tərəfdən görünən odur ki, Ermənistanın siyasi rəhbərliyi prinsipiallıq, iradə göstərmir. Bunun da səbəbi odur ki, Ermənistanın daxilində vəziyyət xeyli mürəkkəbləşib və müxalifət ara-sıra mitinqlər keçirir. Hər halda onlara heç bir təzyiq göstərilmir ki, kontruktiv mövqedə dayansınlar. Ona görə də belə təxribatlar baş verir. Düşünürəm ki, son nəticə etibarilə regionda müəyyənləşdirilmiş reallıqlar öz sözünü deyəcək. Ermənistanın daha konstruktiv addım atması üçün şərait yaradılacağına ümid edirik".

***Arzu Qurbanzadə***



# Bakıda “Formula-1” yarışlarının keçirilməsinə

## CƏMİYYƏTİN BAXIŞI NECƏDİR?

SORĞU

**“Formula-1” açıq təkər tipli avtomobillərin dövrəvi avtoyürüşləri üzrə dünya çempionatıdır. ”Formula-1” üzrə dünya çempionatı isə hər il keçirilir. Artıq bir neçə ildir ki, bu yarışlar davamlı olaraq ölkəmizdə keçirilir. Bu il keçiriləcək ”Formula-1” yarışları isə yaxınlaşmaqdadır. Biz də SİA olaraq, bu yarışlarla bağlı şəhər sakinləri arasında sorğu keçirdik.**

**Şəhər sakini Zöhrab Allahverdiyev:** ”Azərbaycanda bu cür oyunların keçirilməsi çox yaxşıdır. Biz də bir vətəndaş olaraq fəxr edirik ki, ölkəmizdə bu cür beynəlxalq








səviyyəli yarışlar keçilir. Bu cür oyunların keçirilməsi Azərbaycanın dünyada tanınması baxımından çox böyük əhəmiyyətə malikdir. Eyni zamanda düşünürəm ki, bu oyunlar olduqca maraqlı keçir və şəhərin əhval-ruhiyyəsinə bir rəngarənglik qatır”.

**Şəhər sakini Aləmzər Quliyeva:** ”Keçən il də yarışları izləmişdim. Maraqlı olduğunu düşünürəm. Eyni zamanda bu cür oyunlar ölkəmizin dünya səviyyəsində tanıdılmasına şərait yaradır. Bundan əlavə ölkəmizə müxtəlif ölkələrdən qonaqlar gəlir. Bu isə biznesin inkişafına da öz müsbət təsirlərini göstərir”.





**Şəhər sakini Xaliq Quliyev:** ”Əslində bu oyunları izləmək mənim üçün maraqlı deyil. Çünki mənə görə, adi maşınlardır. Gün ərzində biz də maşın sürürük. Amma bu yarış zamanı yollarda problem yaranır və camaat narahat olur”.

**Şəhər sakini Fatimə Süleymanova:** ”Ümumiyyətlə ”Formula 1” yarışlarını izləməmişəm, çünki ümumi olaraq bu tip yarışlara marağım yoxdur. Amma yarışların keçirilməsi yol baxımdan mənə problem yaratmır. Çünki dərslərim şəhər ərazindən kənardadır. Mənə elə gəlir ki, ölkənin tanınması baxımından olduqca yararlıdır”.

**Şəhər sakini Kamran Bağırov:** ”Düşünürəm ki, bir çox ölkələrdən turist axını olur. Bu isə ölkəmizin tanınması baxımından çox yaxşıdır.



Amma ümumi olaraq bu oyunlar mənə maraqlı deyil, demək olar ki, izləmirəm”.

**Şəhər sakini Zöhrə Məmmədova:** ”Formula 1” yarışlarının şəhər ərazisində keçirilməsi əslində mənim üçün heç bir problem yaratmır. Çünki nəqliyyatdan və s. daimi istifadə etmirəm. Lakin eyni şəkildə bir xeyiri də yoxdur, çünki mənim marağımı cəlb etmir. Amma düşünürəm ki, ölkəmiz üçün bu cür oyunların keçirilməsi əhəmiyyətlidir”.



**Şəhər sakini Cəlal Abışov:** ”Mənə görə bu yarışlar o qədər də maraqlı deyil. Üstəlik şəhərdə bu ərəfədə səs-küy də artır. Amma ümumilikdə ölkə üçün əhəmiyyətlidir”.

***Səbinə Hüseynli***

# “Redaksiya siyasəti və peşə etikası qaydaları”na -

## MEDİA KAPİTANLARININ BAXIŞI

**Medianın İnkişafı Agentliyinin ”Redaksiya siyasəti və peşə etikası qaydaları” ilə bağlı sənədin nümunəvi forması media subyektlərinə göndərilib. Hazırda media subyektlərində həmin nümunəvi formaya əsasən, müzakirələr aparılır və media subyektlərinin özləri tərəfindən onların təkmilləşdirilməsi və hər bir media subyektinin özünə uyğun redaksiya siyasəti çərçivəsində həmin peşə etikası kodekslərinin təsdiq olunması prosesinə başlanıb. SİA mövzu ilə bağlı media kapitanlarının fikirlərini öyrənməyə çalışıb:**

**”Bakı xəbər” qəzetinin Baş redaktoru Aydın Quliyev:** ””Redaksiya siyasəti və peşə etikası”nı özündə əks etdirən hər bir redaksiyanın özünün ayrıca ümumi əsaslarla hazırlanmış sənədinin olması əhəmiyyətli bir yanaşmadır. Demək olar ki, bütün müasir media subyektlərinin dünya üzrə hamısında belə bir taktika var. O cümlədən, Azərbaycan Medianın İnkişafı Agentliyi tərəfindən hazırlanmış sənəd çox əhəmiyyətlidir. Bu sənəd redaksiyalarda həm əməkdaşlar arasında münasibətlərin, həm də re-





daksiyanın ümumi fəaliyyətinin jurnalistikanın ümumi qaydalarına və etik nornamalarına uyğunlaşdırılması baxımından mühüm təsiri olacaq. Demək olar ki, Medianın İnkişafı Agentliyi tərəfindən hazırlanmış qaydalar ümumi şəkildə qəbul edilib. Redaksiyamızın əməkdaşları qaydalarla tanış olublar. İndiyə qədər media orqanları və jurnalistlər əsasən Mətbuat Şurasının peşə etikası qaydaları əsasında fəaliyyət göstərirdilərsə, Medianın İnkişafı Agentliyinin bu gün ortaya çıxardığı sənəd tam şəkildə genişləndirilmiş, yeniləndirilmiş bir sənəddir. Ümumilikdə ”Redaksiya siyasəti və peşə etikası qaydaları” anlayışı media orqanları üçün təzə olmasa da, Medianın İnkişafı Agentliyi tərəfindən hazırlanmış bu sənəd yeni müddəaları özündə əks etdirir. Bir sözlə, bu sənəd müsbət sənəddir və bu sənəd ən müasir təcrübə nümunəsi kimi qəbul edilməlidir”.

**”Şərq” qəzetinin Baş redaktoru Akif Aşırlı:** ””Redaksiya siyasəti və peşə etikası qaydaları” ilə bağlı sənədi müsbət qiymətləndirirəm. Dünyanın aparıcı kütləvi vasitələrinin hər birinin ayrı-ayrılıqda yaradıcılıq siyasətləri var. Peşə prinsipləri dominant və dəyişməzdir. Qərbdə, Şərqdə, Avropada və digər ölkələrdə olduğu kimi eyni zamanda Azərbaycan jurnalistikası beynəlxalq jurnalistikanın bir parçası olduğuna görə, biz bunları qəbul etməliyik. Sənəddə peşə etikası, redaksiya siyasəti və hər bir redaksiyanın öz qayda-qanunları ilə bağlı müddəalar əksini tapıb. Hər bir media qurumu öz daxili iclasını keçirib. ”Şərq” qəzeti olaraq biz də yaradıcılıq prinsipləri və peşə dəyərləri ilə bağlı redaksiya daxili iclas keçirərək normativ akt qəbul etdik”.

**”Yenisabah.az” saytının baş redaktoru Seymur Verdizadə:** ”Medianın İnkişafı Agentliyi ”Redaksiya siyasəti və peşə etikası qaydaları” adlı sənədi mütəxəssislərin iş-



tirakı ilə hazırlayıb. Sözügedən sənəddə kifayət qədər vacib məqamlar öz əksini tapıb. Hesab edirəm ki, redaksiyalar bu sənədi gözardı etməməli, diqqətlə incələməli, öz təkliflərini əlavə etməklə ortaya daha mükəmməl bir mətn çıxarmalıdırlar. Dünyanın aparıcı media qurumları redaksiya siyasətini müəyyənləşdirən, etik norma, davranış/rəftar qaydalarını özündə ehtiva edən kodekslərə malikdir. Azərbaycan müasir dünyanın bir parçası olduğu üçün bu təcrübədən yararlanamlıdır. Əksər redaksiyalarda olduğu kimi, Yenisabah.az saytının redaksiyasında da Medianın İnkişafı Agentliyinin (MEDİA) tövsiyyələrinə uyğun olaraq ”Redaksiya siyasəti və peşə etikası qaydaları” mövzusunda müzakirələr aparılıb.

Əməkdaşlarımızın bəzi təklifləri oldu. Bütün təkliflər nəzərə alınaraq, sırf özümüzə xas olan sənəd hazırlandı. Jurnalistika spesifik sahədir. Hamı kimi biz də öz fəaliyyətimizi qanunlarla, ən əsası isə peşə etikası ilə tənzimləməliyik. Jurnalistin silahı sözdür. Jurnalistin sözü qəmbər daşı kimi rəqibin başına çırpmağa ixtiyarı yoxdur. Hesab edirəm ki, yenə sənəd mətbu sferada sağlam mənəvi mühitin formalaşmasını sürətləndirəcək”.

**”Demokrat.az” saytının Baş redaktoru Vasif Həsənli:** ”Bununla bağlı redaksiyada iclasımız keçirildi. MEDİA-nın redaksiyalara göndərdiyi təlimatları müsbət qiymətləndiririk. Gələcəkdə də bu kimi addımları dəstək-



ləyəcəyik. Ümumiyyətlə jurnalist peşəkar olmalıdır. Hesab edirəm ki, bu məsələyə hər kəs müsbət yanaşmalıdır. Hər bir jurnalist ”Redaksiya siyasətinə və peşə etikası qaydaları”na əməl etməlidir. Həmçinin, jurnalistika prinsiplərindən irəli gələn məsələlərə riayət etmək bu peşə ilə məşğul olan hər kəsin işində hiss olunmalıdır”.

***Arzu Qurbanzadə***

# Heydər Əliyev irsi-Azərbaycanın zəfər formulu

**Tarixin bütün dövrlərində zamanın nəbzini ustalıqla tutaraq, böyük uzaqgörənliklə xalqını mövcud və potensial təhlükələrdən qorumağı bacaran liderlər olub. Ulu Öndər Heydər Əliyev isə bəşər tarixinin nadir şəxslərindəndir ki, tam fərqli, həm də olduqca ziddiyyətli geosiyasi və siyasi reallıqlar fonunda xalqın və dövlətin xilası missiyasını üzərinə götürdü və uğurla öhtəsindən gəldi. Heydər Əliyevin Azərbaycan xalqı və dövlətinin xilası uğrunda fəaliyyətinin miqyasını aydın təsəvvür etmək üçün hər şeydən öncə Cənubi Qafqaz regionun strateji və mürəkkəb xüsusiyyətindən çıxış etmək lazımdır.**

Sirr deyil ki, Cənubi Qafqaz regionu təkcə zəngin karbohidrogen ehtiyatlarına görə deyil, həm də unikal geosiyasi əhəmiyyətinə görə dünyanın aparıcı dövlətlərinin diqqətləri mərkəzində olub. Təbii ki, Qərb daha çox regionu alternativ enerji mənbəsi kimi səciyyələndirir. Bununla yanaşı, regionun coğrafi yerləşməsinin verdiyi geosiyasi üstünlüklər də hər zaman Avropanın və ABŞ-ın regionda maksimum fəallıq nümayiş etdirməsini şərtləndirib. Yaxın və Orta Şərqə yaxınlığı Cənubi Qafqaz regionunun geosiyasi əhəmiyyətini müəyyən edən əsas amillərdəndir. Ona görə də dünya dövlətlərinin kəskin toqquşan maraqlarının olduğu bir regionda ölkəni mövcud problemlərin məngənəsindən qurtarmaq və inkişaf yoluna qoymaq misilsiz iradə, müdriklik və bacarıq tələb edirdi. Bütün bu və digər keyfiyyətlərin hamısı yalnız Heydər Əliyevdə cəmləşmişdir. Ayrıca olaraq da, hüdudsuz vətən sevgisi onun doğma Azərbaycan naminə atdığı addımlarının uğurlarını daha böyük edirdi. Sovet İttifaqının süqutundan sonra Azərbaycan ciddi problemlərlə müstəqillik əldə etdi. Ermənistanın əsassız ərazi iddiaları və soydaşlarımıza qarşı qanlı cinayətləri, kütləvi deportasiyaları yenicə müstəqil olmuş ölkənin ciddi sınaqlar qarşısında qoydu. Bundan başqa, SSRİ-nin süqutundan sonra dağılmış iqtisadiyyatla öz müstəqilliyinə qədəm qoymuş Azərbaycan həm də daxili xaosun və siyasi gərginliyin içərisində idi.



*Elşad Mirbəşir oğlu.*
*Milli Məclisin deputatı,*
*YAP İdarə heyətinin üzvü,*
*Siyasi elmlər doktoru, professor.*

Hakimiyyət uğrunda qeyri-sivil mübarizə fonunda təbii ki, nə iqtisadiyyat yada düşürdü, nə torpaqlarının etibarlı müdafiə olunması üçün imkanlar haqqında düşünülürdü. Bütün bu acı reallıqlar ölkənin mövcudluğunu sual qarşısında qoyurdu. Belə olan halda Azərbaycan xalqı növbəti dəfə nə dərəcədə müdrik olduğunu nümayiş etdirdi. Xalq Heydər Əliyevə müraciət edərək, onu xalqı və dövləti mövcud bəlalardan qurtarmağa səslədi. Azərbaycan xalqının təkidli istəyilə ikinci dəfə ali siyasi hakimiyyətə qayıdan Heydər Əliyev qısa zaman kəsiyində olduqca təsirli addımlar atdı. Öncə ölkədə daxili siyasi sabitliyin təmin olunması üçün çalışdı və real nəticələr əldə etdi. Qanunsuz silahlı qüvvələr zərərsizləşdirildi, qanunun aliliyi təmin olundu və ölkənin konstitusion quruluşunun əsasları möhkəmləndirildi. Məhz Heydər Əliyevin müdrikliyi, dövlət idarəçiliyi sahəsində zəngin təcrübəsi sahəsində qısa zaman kəsiyində ölkəmizin ictimai-siyasi həyatında tam sabitlik bərqərar oldu. Ulu Öndərin sonrakı addımı milli iqtisadi sistemin qurulması ilə bağlı oldu. İqtisadi tərəqqiyə nail olmadan digər istiqamətlərdə, xüsusilə də, Milli Ordu quruculuğu sahəsində addımların atılması qeyri-mümkün olardı. BU reallıqdan çıxış edən Heydər Əliyev ölkənin bazar iqtisadiyyatına keçidinin ilkin elementlərinin yaradılması haqqında düşündü. Bu, təbii ki, beynəlxalq iqtisadi əməkdaşlıq sistemində iştirak etmək üçün əsas şərt idi. Bazar iqtisadiyyatına uğurlu keçidin əsasında həm də iqtisadiyyatın liberallaşdırılmasının dayandığını yaxşı başa düşən Ulu Öndər Heydər Əliyev onun təmin olunması üçün də təsirli addımlar atdı. Azərbaycan iqtisadiyyatına hakim kəsilmiş hiperinfilyasiyanın qarşısının alınması, maliyyə sabitliyinin təmin olunması milli iqtisadi sistemin qurulmasının və inkişafın şərtləndirilməsinin başlıca tələblərindən idi. Sözügedən istiqamətdə atılan addımlar öz təsirini göstərirdi. Bazarda qiymətlərin tələb və təklifə uyğun formalaşması ümumi iqtisadi inkişafın əsas drayverlərindən birinə çevrildi ki, bu da Ulu Öndər tərəfindən həyata keçirilən iqtisadi siyasətini düzgünlüyünü bir daha sübut etdi. Təbii ki, ölkə iqtisadiyyatının inkişafı üçün ən başlıca amillərdən biri də sərmayə ilə bağlı idi. 1994-cü il sentyabr ayının 20-də Heydər Əliyevin qətiyyəti, iradəsi sayəsində "Əsrin müqaviləsi" imzalandı. Əsrin müqaviləsinin imzalanması Azərbaycanın iqtisadi inkişafı üçün əsl mənasında bir "nəfəslik" rolunu oynadı. Bu və digər addımlar ölkəni iqtisadi tənəzzüldən qurtardı. Artıq 1996-cı ildən başlayaraq, ölkədə iqtisadi artım müşahidə olund və bu, dönməz xarakter aldı. Azərbaycanın iqtisadi inkişafı keçmiş sovet ölkələri sıralarında öncül yerə qalxdı. Təmin olunmuş siyasi sabitlik, milli iqtisadi sisteminin qurulması Milli Ordu quruculuğu sahəsində təsirli addımların atılması üçün real zəmin yaranmış oldu. Həmin dövrdə Ulu Öndər Heydər Əliyev çox yaxşı başa düşürdü ki, ciddi himayədarlara malik olan Ermənistanın təcavüzlərinin qarşısının alınması və ordunun gücləndirilməsi üçün zaman tələb olunur. Nəzərə almaq lazımdır ki, atəşkəs rejimi əksər hallarda dövlətin hərbi gücünün reanimasiyasını şərtləndirməklə yanaşı, onu həm də daha ağır məğlubiyyətdən xilas etmiş olur. Buna görə də 1994-cü il mayın 12-də atəşkəs haqqında müqavilənin imzalanması olduqca dəqiq hesablanmış taktiki addım kimi qiymətləndirilməlidir. Bunu 44 günlük Vətən müharibəsinin nəticəsi tam dəqiqliklə sübut etdi. Atəşkəs haqqında müqavilə imzalandıqdan sonra ordu quruculuğu sahəsində bütün zəruri addımların atılması üçün real imkan yarandı. Müasir standartlara uyğun ordu quruculuğunun həyata keçirilməsi üçün Silahlı Qüvvələrin maddi-texniki bazasının yaxşılaşdırılması, ən əsası isə, əsgərlərin döyüş ruhunun yüksəldilməsi məsələlərinə xüsusi diqqət yetirildi. Böyük dinamikliklə, qoşun növlərinin formalaşdırılması, hərbi hissələrin qurulması uğurla başa çatdırıldı. Ölkənin etibarlı müdafiə sisteminin qurulması istiqamətində atılan addımlar diqqəti cəlb edirdi. Ulu Öndər Heydər Əliyevin ən müxtəlif istiqamətlərdə həyata keçirdiyi fəaliyyətlərin səmərəliliyini şərtləndirən başlıca amillərdən biri də ondan ibarət idi ki, o, həmişə bu fəaliyyətlərin qanunvericilik bazasının yaradılması və təkminləşdirilməsi məsələsinə xüsusi diqqət yetirirdi. Bu, ordu quruculuğu prosesində də aydın müşahidə olundu. Belə ki, Heydər Əliyevin birbaşa nəzarəti və diqqəti sayəsində Azərbaycan Silahlı Qüvvələrinin ən müasir tələblərə cavab verən mükəmməl qanunvericilik bazası yaradıldı. Vahid komandanlığa tabe olan nizami ordunun formalaşdırılması milli təhlükəsizliyin etibarlı təmin olunması üçün bütün zəruri elementləri təmin etmiş oldu. Bundan başqa, ölkənin xarici siyasətinin artıq keçərli olması da güclü ordu amili ilə birbaşa bağlı idi. Hərqiqətən də beynəlxalq münasibətlər tarixinə nəzər salsaq, görərik ki, dövlətin hərbi gücü nə dərəcədə böyükdürsə, onun diplomatiyası da bir o qədər güclü olur. Beynəlxalq münasibətlər sahəsinin tanınmış tədqiqatçılarından olmuş K. Rayt da əsaslandırır ki, güclü ordu ölkənin diplomatik gücünün başlıca şərtidir. Beləliklə, Ulu Öndər Heydər Əliyev tərəfindən ölkədə daxili siyasi sabitliyin, iqtisadi inkişafın və ordu quruculuğunun təmin olunması ilə həm də diplomatik gücümüz təmin olunmuş oldu. Həmin dövrdə isə Azərbaycan üçün diplomatik güc xüsusilə strateji resurs idi. Belə ki, Ermənistanın ölkəmizə qarşı əsassız ərazi iddiaları və həyata keçirdiyi işğalçılıq siyasəti ciddi beynəlxalq dəstək və təəsübkeşliklə müşaət olunurdu. Münaqişə vəziyyəti ilə bağlı həqiqətlərin dünyaya çatdırılması, beynəlxalq subyektlərin ədalətli və obyektiv mövqe sərgiləmələrinə nail olmaq real diplomatik güc, praqmatik xarici siyasət tələb edirdi. Ermənistan-Azərbaycan münaqişəsini Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad edərək aradan qaldırdı. Lakin 44 günlük Vətən müharibəsində hərbi qələbəmizin kifayət qədər ciddi siyasi elementləri də mövcud idi və bu elementlərinin formalaşdırılmasının əsası Heydər Əliyev tərəfindən qoyulmuşdur. Belə ki, Heydər Əliyev şəxsən yorulmadan münaqişə həqiqətlərini dünya liderlərinin, beynəlxalq ictimaiyyətin diqqətinə çatdırırdı. Məsələn, 1996-cı il 2-3 dekabr tarixində Lissabonda ATƏT-ə üzv ölkələrin dövlət və hökumət başçılarının Zirvə toplantısı keçirilmişdir. Toplantıdan öncə Heydər Əliyev iştirak edəcək bütün dövlət və hökumət başçılarına məktublar göndərərək onları ədalətli mövqe sərgiləməyə çağırmışdır. Lissabon sammitində münaqişə vəziyyəti ilə bağlı həqiqətləri bir daha səsləndirən Heydər Əliyev Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına yol verilməyəcəyini bildirmişdir. Heydər Əliyev bütün çıxışlarında, görüşlərində həqiqətləri əsaslandırmış, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasının vacibliyini səsləndirmişdir. Ümumilikdə Heydər Əliyev 1993-2001-ci illər arasında 68 ölkənin dövlət və hökumət başçıları ilə Ermənistan-Azərbaycan münaqişəsinin müzakirə olunduğu 485 görüş keçirmişdir. Bu görüşlər zamanı Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və həyata keçirdiyi işğalçılıq siyasəti haqqında məlumat vermişdir. Həqiqətən də, bu, böyük iradə və enerji tələb edirdi. Ayrıca vurğulamaq lazımdır ki, belə məlumatlandırma münaqişə vəziyyətində Azərbaycanın haqlı mövqelərə malik olması haqqında təsəvvürlər formalaşdırırdı və möhkəmləndirirdi. Bu baxımdan, qeyd edirik ki, 44 günlük Vətən müharibəsində hərbi qələbəmizin siyasi elementlərinin formalaşdırılması prosesinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Heydər Əliyevin müəyyənləşdirdiyi unikal inkişaf strategiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən dövrün tələblərinə uyğun zənginləşdirilərək davam etdirildi və xalqımızı tarixi qələbəyə qovuşdurdu. Ulu Öndər Heydər Əliyevin irsinin yaşadılması, davam etdirilməsi bütün istiqamətlərdə ölkəmizi uğura və qələbəyə aparır. Zaman sübut edir ki, Heydər Əliyev irsi Azərbaycanın zəfər formuludur.



# Hərbi Qənimətlər Parkında 44-ün 1-i

**Bura həmişə küləklidir. Dənizdən əsən külək dünən müharibədə od püskürən, bugünsə yerindən tərpənməyə cəsarəti olmayan, indi sadəcə dəmir parçası ömrünü yaşayan hərbi qənimətlərin üzərinə hücum çəkərkən bu vıyıltıda 44 günlük payızın sazağını duyuram. Qarabağa-müharibəyə qayıdıram. Qulağıma savaş meydanındakı səslər gəlir, bu silah-sursat, texnikaların fonunda və hərdən küləyin üzümə vurduyu sillələrdə 44 günün 1-ni yaşayıram.**

## 27 sentyabr-10 noyabr... 44 gün

Bilmirəm bu 44 günün hansındayam. Amma orada-Qarabağda müharibə meydanındayam. Suqovuşanda, Füzulidə, Xudafərindəyəm, Zəngilan, Qubadlı, Şuşadayam, Ağdam, Kəlbəcər, Laçındayam, bilmirəm haradayam, amma döyüş meydanındayam. O payızın qonağıyam Qarabağda. Havada heç günəş yoxdur. Amma onun bir doğuşuna elə ehtiyac var ki... Hava həddindən artıq soyuqdur. Hər tərəf bomboz dağlar, dərələr, düzənliklər-otuz ilin həsrətliləridir. Onları seyr etdikcə sanki mənimlə danışırlar: günəş nədir arzulayırsan? Məgər bu ellərdə 30 ildir günəş doğur? Qovmuşuq onu buralardan. Biz özümüzü soyuğa, sazağa, qaranlığa vermişik. Vətəndən ayrı günəşmi doğar? Qovmuşuq günəşi, "get, biz anamızın qoynuna qayıdanda gəlib üzümüzə doğarsan, işığını hiss edərik, hərarətini duyarıq",- demişik. Bax bu səbəbdən də burada nə günəşi axtar, nə doğmasını arzula...

Günəşdən əlimi üzür, ətrafı seyr edirəm. Sazaq ağaclardakı rəngini sarıya döndərməkdə olan yarpaqları ora-bura əsdirməkdən heydən salır. Yorğunluqları lap kənardanca hiss olunur. Yerdəki otlaf da eynilə ağaclardakı yarpaqların taleyini yaşayırlar. Küləyin əsarətindədirlər, onun hökmünə tabedilər. "Burada bahar görəsən necə olur",- deyə düşünürəm. Sanki ətraf ürəyimdən keçənləri oxuyur, sazağını sillə edib üzümə çırpır və bahar nədir, bu yerlər 30 ildir baharı qovub buralardan: biz yaşıllı, allı-güllü baharı, yayı payıza, qışa qurban vermişik. Payızdan, qışdan solğun rənglər alıb bahara, yaya libas tikmişik. Onu da payız etmişik. Biz baharın bu yerlərə gəlişini Vətənə dönənə saxlamışıq. Əlimiz Vətənin əlinə çatanda o əllərlə soyunduracağıq payız rəngli libasını baharın. O əllərlə geyindirəcəyik əyninə alça, ərik çiçəyitək ağappaq donunu, salaçağıq başına şaftalının çəhyayı çiçəyi rəngdə kəlağayısını... yaşıl rəngi əllərimizlə don biçəcəyik bu dağlara, bu düzlərə, dərələrə... indi bizim rəngimizsə boz, qara, gördüyün bu sarı, bir də həsrət rəngidir...

Təbiətlə bu söhbətdən ətrafdakı qulaqbatırıcı səslər ayırır məni. Belə dəhşətli səsləri ilk dəfədir eşidirəm. Bu səslər hər dəfə yenilənəndə vücudumdan keçir, bütün bədənimi dolanıb sonra bayıra çıxır. Payızın sazağı ilə bu səslər elə bir harmoniya yaradıb ki...

## Payız əsgərimin üzündə bahar

Burada payız müharibədən, müharibə payızdan rəng alıb. Rəngi kimi adamın bədənində qanını donduran soyuğu da eynidir: payızın sazağı, müharibənin soyuğu. Adamın iliyinə işləyir bu sazaq, soyuq. Bir hərarət, bir sızqa gün işığı axtarıram. Yoxdur o, sanki ərşə qalxıb. Bombardmanın dumanı bir anlıq çəkiləndə nəzərlərim əsgərimin üzündə dolaşır və səhərdən bəri axtardığımı tapıram. Torpaq, Vətən uğrunda sinəsini sipər edən əsgərimin üzündə elə bir sevgi var ki, burada bahara oxşar tək o sevgidir. Tək o çöhrələrdə günəş doğur. Tək o üzlərdə işıq var. Bu payızın sazağını da, bu müharibənin dəhşətli səsini də tək o sevgi susduracaq gücə malikdir: payızı bahar edəcək qədər, qaranlığa işıq saçacaq qədər, soyuğu ilıq bir hərarətə çevirəcək qədər...

Səngərdə səhəri axşam, axşamı səhər edir əsgərim. Gecənin qaranlığında od yağışının işığında leysan kimi ələndiyi görünən payız yağmurunda islanır, tərpənmir, elə yerindəcədə dayanır, bədəninin hərarəti ilə əynində quruyur paltarları.





Bir an geri çəkilmir. Bu dəhşətli səslərin içərisində hərdən nəğmələr də eşidilir. Vətəndən, anadan, torpaqdan oxuyurlar.

Əzizim kətan yaxşı,
Geyməyə kətan yaxşı.
Gəzməyə qürbət ölkə,
Ölməyə Vətən yaxşı.

Qarabağ şikəstəsinin də səsi gəlir uzaq səngərlərdən.

Könlüm keçir Qarabağdan,
gah bu dağdan, gah o dağdan
axşamüstü qoy uzaqdan
havalansın xanın səsi
Qarabağın şikəstəsi...

Üzü, qulaqları, əlləri qıpqırmızıdır əsgərimin, sazaq yandırıb, qızardıb. Bu qırmızı rəng nərə çəkən igidimin düşmən üzərinə hücumunun da rəngidir. Nərə səsinin rəngidir. Qarış-qarış qələbənin rəngidir. Azad olunan kəndlərədə dalğalanan bayrağımızın rəngidir. Bu rəng payızda bahar rəngidir... Qarabağın payızını bahar edən rəngdir. Vətən, torpaq uğrunda canından keçənlərin torpağı lalələşdirən rəngidir. Bu qan həm də payızda torpağın aclığını doyuran sudur, su rəngidir...

Payız Qarabağ müharibəsinin zaman, məkan, fəsil anlamıdır əbədiyyən. Haqqı unudulmazımızdır. Payız anasıdır bahar üzlü əsgərimin. Yarpağı yastığı, yorğanı, sinəsi ana qoynudur. Budur, şəhidim var, payız ana qoynuna alıb onu, gözlərindən yaş ələyir üstünə. Laylay deyir: bu laylayda həm balasını oxşayır, həm elini. "Sənə qıyan əllər qurusun"la, "Gəlməsəydiniz bu yurdun düşməndə bağrı qan olardı" cümlələri tez-tez bir-birini əvəz edir Payız ananın dilində. O, balasını ağlayır, bir gözündə ələm, birində qürur. Birində əbədi kədər, birində əbədi torpaq vüsalı. Hicranı didib dağıdan o vüsal. Şəhidimin qanı rəngindəki vüsal. Əsgərimin gözünü yumduğu qara rənglə ruhunun pərvazlandığı ağ və mavi rənglər arasındakı qəhrəmanlığın, ölməzliyin bəxşişi vüsal... Qarabağın qara bəxtindəki ağ rəngli vüsal...

## Od puskürən silahlar

Yenə də bilmirəm torpaqlarımızın hansındayam. Amma 44 günlük müharibənin 1 günündə oradayam. Müharibə meydanında dəhşətli səslər var. Bu səslər od püskürən, ömürləri yarımçıq qoyan zireh, artilleriya, qoşqu və silah-sursatlardan çıxır. 30 ilin əvvəlində-Birinci Vətən Müharibəsində torpaqlarımızın işğalına fərman verənlərin istəkləri naminə düşməni təchizatlandırdıqları silahların on, iyirmi qat artığıdır bu silahlar. Dayanmadan-durmadan od püskürürlər. O avtomobillər 30 ildə torpaqlarımızda düşmən istehkamlarının yaradılmasına, səngərlərin qazılmasına, minaların basdırılmasına xidmət edib. Bizim torpaqlarımızda bizlərə təhlükə yaratmaq üçün istifadə edilib.

Bu silahların burnunda soydaşlarımız Qarabağdan-öz doğma ata-baba yurdlarından didərgin salınıblar. Gecənin yarısında bu silahların dəhşətli səsi vahimə ilə girib evlərə. Ömürləri yarımçıq qoyub, körpələri qanbağır edib, onların məsum dünyasına zərbələr endirib. Bu silahlar 30 ildir, yurd təşnəsi çəkib ürəklərə. Səpələyib minlərlə insanı ölkəmizin bölgələrinə. Adlarını köçkün, qaçqın qoyub bu silahlar onların. 30 ildə yalnız yuxularda doğma həyətlərinə qədəm qoyub şuşalılar, laçınlılar, kəlbəcərlilər, ağdamlılar... bu silahlarla zorla evindən çıxarılanlar 30 ildə bayramlarda ağlayıblar, əzizlərinin qəbirlərini ziyarət edə bilməyiblər.

Susdurur əsgərim o silahları. Bir-bir susdurur. Kənbəkənd, şəhərbəşəhər susdurur. Çevirir od püskürən ağzını düşmənə tərəf, "artıq 90-cı illər deyil",- deyir. Bir addım da irəliyə gələ bilməzsiniz. Qarşınızda güclü Azərbaycan ordusu var. Bu ordunu üstələyə nə casarətiniz, nə də gücünüz çatar. Çıxın bu torpaqlardan, sizin olmayan, tamahınız olan torpaqlardan...

Düşmən silahını, texnikasını qoyub qaçır. Canını əsgərimdən qorumaq üçün qaçır. Çünki qarşısında vətənpərvərlik ruhu iliyinə işləmiş Azərbaycan gənci var. Bu qüdrətli ölkənin sərkərdəsi var. Həmrəy insanları, bir əmrlə hər biri Qarabağa yollanacaq insanları var. Bir də Qələbəyə, Zəfərə gedən yolda qısa bir yolçuluq var.

Silahların, zirehlərin, texnikaların səsi qulaqlarımda çığnayır. Küləyin səsi də bu səslərə yoldaşlıq edəndə bir anlıq düşüncələrdən ayrılır, müharibədən Hərbi Qənimətlər Parkına qayıdıram...

## Təkərlərdə quruyan palçıqdan Qarabağın ətri gəlir

Qarşımda Zəfər var, onu seyr edirəm, qələbənin o heyrətamiz dadını yenidən dadıram. Ətrafım göz baxdıqca uzanan ərazidə hərbi qənimətlərlə doludur. Od püskürən silahlar necə də susublar. Onların gücü əllərindən alınıb, cəsarətsizləşiblər. Sadəcə dəmir parçalarına çevriliblər. İki il öncə üstümüzə hücumla gələn, yüzlərlə igidimizin ömrünü, arzularını yarımçıq qoyan silahlar... Yüzlərlə igidimizin sağlamlığını əlindən alan silahlar. Yüzlərlə ananın göz yaşı, atanın əyilmiş qəddi olan silahlar... Yüzlərlə balanın atasızlığına səbəb, yüzlərlə qadının sevdiyini əlindən alan silahlar... Müharibədən sonra onlarla dünyaya gələn uşağın ata üzünü görməsini əngəlləyən silahlar... Neçə-neçə nişanlı qızın hicran dağı silahlar... Necə də susublar. Sanki bütün bunları edən onlar deyilmişlər. Gəncədə, Bərdədə, Ağdamda günahsız insanların qətlinə hökm verən deyilmişlər. İnsanların qurulu evlərini dağıdan deyilmişlər. Həyət-bacalarında işlədikləri yerdəcə ömürlərini tamamlayan deyilmişlər...

Düşmən silahlar... Yağıların əlləri dəyən, nəfəsləri içərisinə dolan murdar silahlar. Yeni torpaqların işğalı üçün düşmən əmrini yerinə yetirən silahlar... Baxdıqca Zəferimiz üçün qürur duyduğum, itkilərimiz üçün susqunluqlarından belə qisas almaq istədiyim silahlar, texnikalar, avtomobillər...

Bütün bu düşüncələrin fonunda gözlərim tankların, avtomobillərin, qoşquların təkərlərinə sataşır. Qurumuş palçıqlar düşüncəmə hakim kəsilir. Bu texnikalar düşmənindir, ancaq o palçıq bizimdir. Bizim torpaqların 44 gündə payız yağları ilə islanıb palçıqlaşan parçasıdır. Əlimi atıb o palçıqdan bir parça qoparıb, əlimdə ovxalayıram, burnuma tərəf yaxınlaşdırıram. İlahi, bu palçıq qurusu Suqovuşan, Füzuli, Xudafərin, Zəngilan, Qubadlı, Şuşa, Ağdam, Kəlbəcər, Laçın... qoxur. Nə qədər doğma ətir saçır. Bu munis duyğu bir az öncə parçalamaq istədiyim texnikaların əslində günahının olmadığını anladır mənə: onlar cansızdır, kimlərinsə iradəsi ilə hərəkət etdirilən əşyalardır. Nə yazıq ki, bəxtlərinə erməni kimi murdar məxluqatlara məxsusluq yazılıb. Nə xoşbəxtdilər ki, erməni məhbusluğundan çıxıb belə bir gözəl ölkəyə gətirilmək kimi alın yazına malik olublar. Nə bəxtəvərdilər ki, üzərlərində biz azərbaycanlıların bir ovcu üçün canımızı verməyə hazır olduğumuz torpaq var. Hələlik azad torpaqlar minalardan təmizlənməkdə, abadlaşdırılmaqdadır ki, soydaşlarımız yurdlarına rahatlıqla qayıda bilsinlər. Doğma torpaqlara qayıdanadək o yurdların ətrini bu təkərlərdəki palçıqlaşmış torpaqdan duymaq 30 illik yurd təşnəli qəlblərə məlhəm kimi gələr...

**_Mətanət MƏMMƏDOVA_**

# Zəfər Qurultayı xalqımızın yenilməzliyinin, məğrurluğunun təqdimatı oldu

**Bir ildən artıqdır ki, Azərbaycanın qalibiyyətindən, tarixinin ən şanlı səhifəsini yazdığı üçün qürurlu olmasından bəhs edirik. Bu dövrdə tarixi Zəfərimizin reallıqları fonunda davamlı olaraq müxtəlif məqamları özündə əks etdirən zəfərlərin təqdimatını edirik. Necə ki, bu gün dünya Şuşanın ev sahibliyi etdiyi Zəfər Qurultayından bəhs edir. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır.**



*SEYFƏDDİN ƏLİYEV, YAP Masallı rayon təşkilatının sədri*

Bu günümüzün qalibiyyət sevinci keçilən yolun təhlilinin bir zərurət kimi qarşıya qoyur, onu şərtləndirən amillər əsaslı şəkildə diqqətə çatdırılır. Reallıq budur ki, 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli ilə hakimiyyətə qayıdışı, xilaskarlıq missiyasını uğurla yerinə yetirməsi bugünkü uğurlarımızı şərtləndirdi. Azərbaycanı müstəqilliyimizin ilk illərinin xaosundan, anarxiyasından, özbaşınalıqlarından, iqtisadi böhranından, informasiya blokadasından xilas edən Ümummilli Lider dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın birliyinə, həmrəyliyinə nail olmaqla uğurlu siyasəti ilə ölkəmizin dünyaya günəş kimi doğmasını təmin etdi və diaspor quruculuğu dövlət siyasətinin əsasına çevrildi. Ümummilli Lider azərbaycanlı olduğu üçün fəxr etdiyini bildirərək bütün dünya azərbaycanlılarının azərbaycançılıq ideyası ətrafında sıx birliyə çağırdı və onun müsbət nəticəsini 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimizdə gördük. Və bu baxımdan Dünya azərbaycanlılarının qurultayının keçirilməsi bir tələbə çevrildi. Ulu öndər Heydər Əliyevin 23 may 2001-ci il tarixli "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" Sərəncamında da bu reallıq öz əksini tapmışdır ki, Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1991-ci il 16 dekabr tarixli qərarı ilə dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın birliyinin, həmrəyliyinin zəruriliyini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Sonra bu bayramın bütün ölkədə rəsmi qeyd edilməsi barədə Azərbaycan Respublikasının Ali Soveti qərar qəbul etdi. Beləliklə, 1991-ci ildən etibarən Azərbaycanda hamımız üçün əziz bir bayram olan 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü təntənə ilə qeyd olunur.

Bu günlərdə isə Azərbaycanın və Türk Dünyasının Mədəniyyət Paytaxtı elan olunan 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirak etdiyi Zəfər Qurultayında dövlət başçısı İlham Əliyev proqam xarakterli nitqində Qələbəmizi şərtləndirən amillərdən, Azərbaycan diasporunun gücündən və postmünaqişə dövrü üçün qarşısında dayanan vəzifələrindən bəhs etdi. Və bildirdi ki, Dünya Azərbaycanlılarının V Qurultayı son illər yüksək təşkilatlanma və birlik nümayiş etdirən, beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılmasında xüsusi rol oynayan diasporumuzun Qarabağın azad edilməsindən sonra ilk böyük görüşüdür.

"Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz. Yaşasın Şuşa! Yaşasın Qarabağ! Hamımız birlikdə: Qarabağ Azərbaycandır!",- deyən Prezident İlham Əliyev vurğuladı ki, Şuşa Dünya Azərbaycanlılarının V qurultayına ev sahibliyi etməklə bir daha öz tarixi sahibinə qovuşduğunu, Azərbaycanın əzəli torpağı olduğunu dünyaya bəyan etdi.

## "Təxribat-diversiya qruplarının fəaliyyəti hər zaman gözləniləndir"

**"Azərbaycan və Ermənistan arasında münasibətlərin nizamlanana qədər və sülh danışıqları tam şəkildə aparılana qədər Ermənistan tərəfinin təxribatlar törətməyi gözlənilən haldır". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Samir Hümbətov bildirib.**

Onun sözlərinə görə, Azərbaycan və Ermənistan arasında münasibətlərinin normallaşması hansı dövlətə, təşkilata sərf etmirsə, onların buradakı mövqeyinə zərbə vurursa, onların nüfuzunu aşağı salırsa elə həmin dövlətlər də bu təxribatçı əməlləri davam etdirəcəklər: "Rusiyadakı bəzi dairələri buna misal çəkmək olur.



Çünki 6 aprel tarixində keçirilən Bresseldəki görüşdən sonra bir sıra məsələlərin həll olunması onlarda ciddi narazılığa səbəb olub. Onlar düşünürlər ki, əgər Ermənistan-Azərbaycan arasında sülh müqaviləsi imzalanarsa və tərəflər sülh prosesini məsələsini davam etdirirərsə Cənubi Qafqazda yeni bir reallığın yaranmasına gətirib çıxara bilər. Bu da sərhəddə rus sülhməramlılarının fəaliyyətinə ehtiyac olmadığını göstərir. Buna görə də bu təxribatlar davam etdirilir ki, tərəflər arasında sülh müqaviləsi imzalanmasın. İstəyirlər ki, daimi gərginlik və münaqişə davam etsin. Ona görə də bu cür təxribat-diversiya qruplarının fəaliyyəti hər zaman gözləniləndir. Düşünürəm ki, bundan sonra da davam edəcək. O vaxta qədər ki, tərəflər arasında sülh müqaviləsi imzalansın. Hətta düşünürəm ki, təxribat-diversiya qrupları sülh müqaviləsinin imzalanmasından sonra da davam edəcək. Çünki Ermənistan daxilində bəzi qüvvələr var ki, onlar Paşinyana və onun hakimiyyətinə qarşıdırlar və bu sülhü istəmirlər. Paşinyan ölkə daxilində olan rusmeyilli qüvvələri təmizləyərsə bu təxribatlar minumuma endirilə bilər".

***Abutel İlhamqızı***

# Türk dostluğunun növbəti təcəssümü

**Dil və din eyniliyi olan Azərbaycan ilə Qırğızıstan münasibətləri qədim tarixə malikdir. Azərbaycanlılar və qırğızlar eyni kökə, mədəniyyətə, qədim tarixi münasibətlərə və ənənələrə malikdir. Vaxtilə hər iki ölkə keçmiş SSRİ-nin tərkibində müttəfiq respublika olmuşlar. Elə həmin dövrdə də onlar arasında iqtisadi və mədəni əlaqələr formalaşmışdır. Sovetlər birliyi dağıldıqdan sonra, hər iki müstəqil respublikada qarşılıqlı münasibətlər daha da inkişaf etməyə başlamış və bu gün də davam edir.**



*Anar Nəbiyev*
*YAP Qazax rayon təşkilatının sədri*

Qırğızıstan Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycana rəsmi səfəri çərçivəsində ölkə Prezidenti İlham Əliyevlə rəsmi görüşü, bir sıra sənədlərin imzalanması və mətbuata 20 aprel tarixli birgə bəyanatları olduqca əhəmiyyətli tarixi və siyasi əlaqələrin nəticəsidir. Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün ölkələrlə sülh şəraitində, bir-birinin maraqlarına hörmət və ehtiram mühitində qarşılıqlı faydalı əməkdaşlıq və dostluq münasibətlərinin tərəfdarıdır. Ölkəmizin xarici siyasət strategiyasının əsas mahiyyətini təşkil edən, qonşu və qeyri-qonşu dövlətlərlə sıx əməkdaşlıq, tərəfdaşlıq münasibətləri ən yüksək səviyyədə qurulub. Azərbaycan dövləti bütün dünya dövlətlərinin beynəlxalq hüququn tələbləri çərçivəsində dialoq yolu ilə ortaq fikrə gələ biləcəyini dəfələrlə vurğulayaraq, bütün mübahisəli və münaqişəli məsələlərin danışıqlar yolu ilə həll edilməsinə çalışıb, problemli ölkələr arasında faydalı vasitəçi rolu oynamağa hər zaman hazır olduğunu diqqətə çatdırıb.

Sevindirici haldır ki, bu gün Azərbaycan-Qırğızıstan münasibətləri keyfiyyətcə yeni səviyyəyə çatıb. Belə ki, azərbaycanlılar və qırğızlar eyni kökə, mədəniyyətə, qədim tarixi münasibətlərə və ənənələrə malikdirlər. Bundan başqa bu xalqları dil və din eyniliyi də birləşdirir. Bütün bu amillər, eləcə də dövlət başçılarının uzun illər ərzində uğurlu xarici siyasi kursunun əhəmiyyətli nəticələri hər iki dövlətin və xalqların daha da yaxınlaşmasına səbəb olub. Əlaqələrimiz dinamik və səmərəli inkişaf etməklə, gələcək perspektivdə daha da məqsədəuyğun nəticələrə zəmin yaradır. Müstəqilliyin ilk illərində Azərbaycan-Qırğızıstan əlaqələri Mərkəzi Asiyanın digər türk dövlətləri ilə olduğu kimi, əsasən, beynəlxalq və regional təşkilatların işində əməkdaşlıq çərçivəsində həyata keçirilib. İkitərəfli münasibətlərin genişlənməsində isə ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri olub. 11 noyabr 1996-cı ildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Qırğızıstan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol imzalanıb. Sonrakı illərdə də bu əməkdaşlıq daha da genişlənib. Belə ki, 16 may 2007-ci ildə Azərbaycan Respublikasının Qırğızıstanda səfirliyinin açılması, 18 yanvar 2008-ci ildə isə Qırğızıstanın Azərbaycana yeni səfir təyin etməsi deyilənlərə sübutdur.

İki dost ölkə arasında cari ilin 20 aprel tarixində imzalanmış strateji tərəfdaşlıq haqqında bəyannamə yüksək əməkdaşlığa köklənir. "Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının yaradılması haqqında Memorandum"u Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun imzalaması isə olduqca xüsusi əhəmiyyətə malikdir. İmzalanan sənədlərin müxtəlif sahələri əhatə etməsi, dövlət idarəçilik akademiyaları, televiziya və radio verilişləri yayımları, kənd təsərrüfatı, iqtisadiyyat, maliyyə, rabitə və informasiya-kommunikasiya texnologiyaları, hava əlaqəsi, əqli mülkiyyətin qorunması sahəsində anlaşma və əməkdaşlıq haqqında memorandum və sazişlərin gələcəkdə ikitərəfli tərəfdaşlıq münasibətlərinin daha da yeni mərhələyə qədəm qoymasına gətirib çıxaracağı şübhəsizdir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində əməkdaşlığın səmərəliliyini artıran amillər daha da diqqətə alınacaq, iki xalq arasında dostluq və əməkdaşlıq bağları daha da möhkəmləndiriləcəkdir.Qloballaşan dünyada dövlətlərarası münasibətlər sülh və əmin-amanlıq şəraitində daha da inkişaf edəcəkdir.

## Makronun yenidən prezidentliyi Azərbaycana necə təsir edəcək?

"Fransada Makronun növbəti dəfə hakimiyyətə gəlişi gözlənilən idi". Bu sözləri SİA-ya açıqlamasında politoloq Zaur Məmmədov bildirib. Onun sözlərinə görə, Ukrayna hadisələri fonunda Amerikanın Avropa İttifaqını ciddi şəkildə cəzalandırdığı bir vəziyyətdə və eyni zamanda NATO-ya soyuq münasibət bəsləyən Lepeyin hakimiyyətə gəlməsi yolverilməz hal idi: "Bunun nəticəsi olaraq müəyyən qüvvələri olan Makron Fransada hakimiyyətə gəldi. Bu əslində Fransada sabit siyasətin davam etdiriləcəyi mənasını verir.



Qeyd etmək istərdim ki, Fransa ATƏT-in Minsk qrupunun üzvü olduğundan və eyni zamanda Avropa İttifaqının tərkibində əsas rol oynayan ölkələrdən biri olduğu üçün Azərbaycan və Avropa İttifaqı arasında olan münasibətlərə təsir edəcək. Düzdür, Fransada hakimiyyətdə kimin olmasından asılı olmayaraq onlar erməni dəyirmanına su atmaqla məşğul olurlar. Makronun artıq danışıqlarda təcrübəsi var və prosesləri digər prezidentliyə namizəd olan şəxslərdən daha yaxşı bilir. Ümid edək ki, o artıq realığı qəbul edər. Makron qeyri-sabit davranışı ilə seçilən prezidentlərdən biridir. Yaxşı olar ki, Fransa öz qarşısında olan təhlükəsizlik problemi və Avropa İttifaqı ilə bağlı olan çağırışlarını düşünsün. Cənubi Qafqazdakı proseslərdə isə Azərbaycanın ədalətli mövqeyini dəstəkləmiş olsun".

***Banuçiçək Hüseynlie***

# “Rusiya Ermənistan-Azərbaycan arasındakı proseslərə maneələr yaratmağa çalışır”

## Beynəlxalq ekspert Anar Əliyevin SİA-ya müsahibəsini təqdim edirik:

***-Şuşada Zəfər Qurultayı baş tutdu. Dünya Azərbaycanlılarının V Qurultayında 65 ölkədən 400-dən çox diaspor nümayəndəsi iştirak edirdi. Azərbaycan dövlət başçısı 22 apreldə qurultayda çıxış etdi. İstərdim ki, söhbətə buradan başlayaq.***

-Azərbaycan dövlətinin maraqlarının beynəlxalq səviyyədə qabardılması, apardığımız haqq mübarizəsinin dünya ictimaiyyətinə düzgün çatdırılması ilə bağlı tədbirlər daim keçirilib. Amma torpaqlarımız azad olunduqdan sonra Zəfər Qurultayının mədəniyyət paytaxtımız Şuşada keçirilməsi əlamətdar bir hadisə oldu. Qurultayda dünya azərbaycanlılarının bundan sonra görəcəyi işlər, atacağı addımlarla bağlı mesajlar səsləndi. Prezident İlham Əliyev çıxışı zamanı geniş istiqamətli fikirlər səsləndirdi. Düşünürəm ki, bu mesajlarda əsas hədəf dünya erməniçiliyi idi. Erməni siyasəti üzərindən Cənubi Qafqazda oyun qurmaq istəyən bəzi dünya güclərinə mesajlar verildi. Cənab Prezident erməni dövlətinə növbəti dəfə təxribatlar törətdiyi, Azərbaycana qarşı çıxışlar etdiyi halda daha ağır zərbələr alacağını xatırlatdı. İlham Əliyev, ”Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımağa məcburdur. Əgər tanımasa, biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq” deyə maraqlı bir fikir də səsləndirdi.

Eyni zamanda, V Qurultayda dünya azərbaycanlıları ilə bağlı məsələlərə də toxunuldu. Yalnız qalib Azərbaycan dövlətinin nümayəndəsi olduğunu hiss etməklə iş bitmir. Bundan sonra da mübarizəni davam etdirməliyik.



***-Brüssel görüşünün gündəliyi tam açıqlansa da, Moskvada Putinlə Paşinyan arasındakı müzakirələrin detalları tədricən bəlli olur. Sizcə, ortada razılaşmaların olduğu bir məqamda Kremldə bağlı qapılar arxasında danışıqlara nə dərəcədə ehtiyac yaranmışdı?***

-Əvvəla, xatırlatmaq lazımdır ki, Brüssel görüşü ilə bağlı məlumatlar ictimaiyyətə ötürülən kimi Rusiya Prezidenti həm Ermənistanın baş naziri, həm də Azərbaycan Prezidenti ilə telefon əlaqəsi saxladı. Bununla da Ermənistan və Azərbaycan arasında münasibətlərin tənzimlənməsində Rusiyanın dominant rolunu bir daha göstərməyə çalışdı. Yəni, hələ Brüssel görüşü baş tutmadan öncə Paşinyanın Moskvaya səfəri planlaşdırılmışdı. Ona görə də bu səfərin məhz Brüssel görüşü ilə əlaqədar baş tutduğunu demək düzgün deyil. Amma təbii ki, Brüsseldə Azərbaycanın irəli sürdüyü 5 şərt, aprel ayının sonunadək sərhədlərin delimitasiyası və bununla bağlı işçi qrupunun yaradılması ilə bağlı fikirlərin səslənməsi bir sıra qüvvələri, xüsusilə də Rusiyanı narahat etdi. Çünki Rusiya prosesin tənzimlənməsi məsələsinin onun nəzarətindən çıxdığını çox yaxşı dərk edir. Eyni zamanda, Rusiya bilir ki, əgər Azərbaycan ilə Ermənistan arasında münasibətlər normallaşsa Rusiyanın bölgədə iştirakçılığı aradan qalxacaq. Ona görə də Rusiya prosesə maneələr yaratmağa çalışır.

***-Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov ikinci dəfə üçüncü tərəfin iştirakı olmadan erməni həmkarı Ararat Mirzoyanla telefonda danışdı. Hesab etmək olarmı ki, artıq Azərbaycan və Ermənistan bundan sonra yola ikilikdə davam edəcək, yəni vasitəçi olmadan?***

-Bu hadisənin özü də bir müsbət xarakter daşıyır. Müstəqillik əldə etdikdən sonra demək olar ki, iki dövlətin baş nazirləri arasında belə bir görüş ilk dəfə idi baş tuturdu. Bunu daha çox Brüssel görüşündə iki dövlət arasında əldə olunan razılıqlar fonunda keçirilən danışıqlar kimi dəyərləndirirəm. Bu istiqamətdə cəhdləri davam etdirmək lazımdır. Bundan bir neçə gün öncə Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu maraqlı bir fikir səsləndirdi ki, söhbət Azərbaycanla Ermənistan arasında münasibətlərdən, Ermənistanla Türkiyə arasında əlaqələrin bərbasından gedirsə üçüncü tərəfə nə ehtiyac var. Bu mənada addımların atılması iki dövlət arasında sülh müqaviləsinin imzalanması yolunda uğurlu bir gedişdir.

***-Azərbaycanla Ermənistan arasında Birgə Sərhəd Komissiyasının, habelə sülh müqaviləsinin işlənib hazırlanması ilə bağlı işçi qrupunun görüşlərinin yaxın zamanlarda təşkil olunmasına dair razılıq əldə olunub. Sülh danışıqlarından gözləntiniz nədir, gözlənilən barışıq əldə olunacaqmı?***

-Əslində, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması çox uzun bir prosesdir. Bu prosesdə ayrı-ayrı istiqamətlər üzrə işçi qrupu işləməlidir. Amma ən azından bu istiqamətdə əməli addımların atılması hər iki tərəfdən, xüsusilə Azərbaycan tərəfindən belə bir siyasi iradənin ortada olduğunu göstərir. Təəssüf ki, Ermənistanın bu mövqeyinə təsir edəcək qüvvələr var. Amma gec-tez bu proses yekunlaşmalıdır. Ermənistan özü də dərk edir ki, düşdüyü bataqlıqdan çıxmaq üçün Azərbaycanla sülh müqaviləsi imzalamağa məcburdur.

***Ləman Əlizadə***



**Elçin Bayramlı**

# Gen məbədimizə təcavüz

Hazırda bütün dünyada GMO-nun ekologiya, insan sağlığı və iqtisadiyyata potensial zərərləri haqqında qızğın müzakirələr getməkdədir. Üzərində anlaşmazlıq olan əsas məsələlər, GMO qidanın müvafiq şəkildə etiketlənməsi, dövlət tənziminin bu işdə rolu, GMO məhsullarının insan sağlığı və ətraf mühit üzərindəki təsiri, pestisid müqaviməti, aqronomiya və dünya əhalisini qida ilə təmin etmə prosesinə təsiri ətrafında cəmləşir.

Transgen orqanizm GMO-nun bir növü olub tamamilə başqa bioloji növlərdən gen və ya genlərin köçürülməsi yolu ilə əldə olunmuş orqanizmlər nəzərdə tutulur. GMO canlının öz DNTsində dəyişikliklər əmələ gətirmək yolu ilə də əldə oluna bilər. Heyvan genlərinin bitkilərə köçürülməsi ilə də GMO toxumlar yaradılır.

GMO mikroorqanizmlər istehsalat sənayesində xüsusilə tibbdə istifadə olunan saflaşdırılmış farmaseptik insan züllalarının əldə olunmasında geniş istifadə olunmaqdadır. Bunların ilk və ən məşhur örnəyi genetik dəyişdirilmiş bakteriyalardan əldə olunan insulin hormonudur. GMO mikroorqanizmlər qida istehsalında istifadə olunan fermentlərin istehsalında da geniş istifadə olunur. Bunların arasında bakteriyadan əldə olunaraq nişastanı bəsit şəkərlərə çevirən alfa-amilaz, pendir emalında istifadə olunan, süd zülallarını çökdürən kimozin, kif və ya bakteriyalardan əldə olunan pektinesteraz, meyvə şirələrinin şəffaflığını artıran fermentləri saymaq olar.

GMO və məhsullarının elmi araşdırma laboratoriyasından çıxarılması, kütləvi istehsalı prosesinin qanuni tənzimi ölkədən ölkəyə böyük fərqliliklər göstərir. ABŞ, Kanada, Livan və Misir kimi ölkələrdə GMO digər məhsullardan xüsusi olaraq fərqləndirilmir. Dünyanın əksər ölkələrində isə GMO-nun idxal və istehsalatına qismi yaxud tam qadağa və məhdudiyyətlər mövcuddur.

Son dövrlərdə GMO məhsulların insan sağlamlığını məhv etdiyi, təbiətə və ekologiyaya ağır zərbə vurması çoxaylı elmi təcrübələrlə təsdiq edilmişdir. Bundan başqa GMO əkinçiliyə keçən ölkələr qlobal GMO korporasiyalarından asılı vəziyyətə düşür.

Çox sayda nüfuzlu alimlərin fikrincə, geni dəyişdirilmiş məhsullar insanlar və bütün canlı aləm üçün təhlükəlidir. Bu məhsullar insanın gen strukturunu və psixologiyasını dəyişir, onun immunitetini ağır vəziyyətə salır, onu öz təbii bioloji vəziyyətindən çıxarır və çox qorxunc xəstəliklərə səbəb olur. Xərçəng xəstəliyinin ən böyük səbəblərindən biri də geni dəyişdirilmiş ərzaq məhsullarıdır.

GMO özünü 2-ci nəsildə daha faciəvi şəkildə büruzə verir. Genetik strukturu pozulmuş yeni nəsillərin immuniteti zəif olur, xəstəliklərə, viruslara davamlılığa aşağı düşür. Heyvanlar üzərində aparılan təcrübələr də bunu göstərir.

Transgen məhsullar təkcə insanlar üçün yox, bütün canlılar, bütün təbiət üçün qorxunc təhlükədir. Belə ki, genetik tərkibi qarışdırılmış orqanizmlər torpaq fondunu məhv edir, onların əkildiyi torpaqlar təbii münbitliyini, faydalı mikroorqanizmləri itirir və sonra orada digər təbii məhsulların əkilməsi mümkün olmur. Heyvanlar da GMO yemlərdən qidalanaraq öz təbiiliyindən çıxır, xəstə bir yarımcan kütləyə çevrilir.

Dünyanın əksər ölkələrində buna qarşı dövlət və ictimai təşkilatlar səviyyəsində mübarizə aparılır, bir çox ölkələrdə GMO məhsulların istehsalı, idxalı, satışı qadağan edilib. Əksər ölkələrdə buna qarşı ciddi ictimai müqavimət var.

Azərbaycanda geni dəyişdirilmiş məhsulların istehsalı, idxalı və satışı bir neçə qanunla qadağandır. Lakin buna baxmayaraq uzun illərdir ki, satışda belə məhsullara çox rast gəlinir.

Bəzi qlobal mərkəzlər- başda Ümumdünya Ticarət Təşkilatı olmaqla- ölkələrdə qanunların dəyişdirilməsinə və GMO-ya icazə verilməsinə çalışırlar. Biz isə cəmiyyət olaraq qida təhlükəsizliyi kimi ən vacib məsələyə etinasız yanaşırıq.

Bu günlərdə Milli Məclisdə müzakirəyə çıxarılan Qida təhlükəsizliyi haqda qanun layihəsində GMO məhsullara icazə verilməsi bəndi ictimai təşkilatların narazılığına səbəb olub. Mediada geniş müzakirəyə çıxarılan bu məsələyə cəmiyyət də öz etiaznı bildirir. Bir çox deputatlar da sərt şəkildə bunun əleyhinə çıxırlar. Ümid edirik ki, Milli Məclis 3-cü oxunuşda həmin qanun layihəsindən GMO məhsullara icazə verən bəndlərin çıxarılmasından sonra qəbul edilməsinə səs verəcək.

# “Məktəbəqədər təlim-tərbiyə uşaqların gələcəyi üçün zəruri bir başlanğıcdır”

**“Məktəbəqədər hazırlıq prosesi uşağın gələcək tədris pillələrindəki bilik bacarığının formalaşması baxımından çox önəmlidir. Məktəbəqədər təhsil uşağın şəxsiyyət kimi formalaşması və cəmiyyətə hazırlığı baxımından da müstəsna əhəmiyyət daşıyır.” Bu fikirləri ”Sübhnur” Təhsil Mərkəzinin rəhbəri Gülnarə Hüseynova açıqlayıb.**

Təhsil Mərkəzinin rəhbəri qeyd edib ki, məktəbəqədər hazırlığın əsas özəlliyi ondan ibarətdir ki, bu hazırlıq uşaqlarada ilkin dünya görüşü, riyazi və məntiqi təfəkkürün, oxu və yazı bacarığının formalaşdırılması ilə yanaşı, gələcəkdə məktəb dərslərini daha yaxşı mənimsəməyə zəmin hazırlayır:



”Bundan başqa, məktəbəqədər təlim-tərbiyə uşaqların gələcəyi üçün zəruri bir başlanğıcdır. Uşağın bu dövrdə necə təhsil alması və hansı təlim-tərbiyə üsulundan keçməsi çox önəmlidir.

Məktəbəqədər yaş dövrü insan şəxsiyyətinin formalaşmasına təsir göstərən əsas mərhələlərdən biridir. Bu yaş dövrü uşaqların sosiallaşması, böyüklər və yaşıdları ilə daha çox ünsiyyət qurması, mədəni vərdişləri mənimsəməsi, mənəvi və estetik hisslərin oyanması dövrüdür. Bağçalar da, öz növbəsində, uşağın ətraf aləmlə qarşılıqlı münasibətini təmin etməyə, xeyirxah hisslər oyatmağa, əməkdaşlığa nail olmağa qadir olan məktəbəqədər təhsil müəssisəsidir.”

# Azad Füzulinin hüsnü abadlıqla ilmə-ilmə naxışlanır

## Prezident İlham Əliyev: "Azad edilmiş bütün torpaqlarda həyat bərpa olunacaq, vətəndaşlar öz doğma ocaqlarına qayıdacaqlar..."

Ey böyük Məhəmməd Füzuli, 2020-ci ilin payızında Azərbaycanın gözü, döyünən ürəyi Füzuli rayonunun növbəti bir sıra kəndlərinin və Füzuli şəhərinin işğaldan azad olunması xəbərini ölkəmizin Prezidenti, Ali Baş Komandandan alanda ilk xəyalıma gələn Sən oldun. Milli Ordumuzun qanı, canı bahasına düşməndən qopardığı əzəli və əbədi yurd yerlərimiz Səni xatırlatdı mənə. Ey torpaq sevgisinin aşiqinə çevrilən, ey Vətən sevgisinin Məcnunu olan, ədalətə, haqqa canını qurban verən, damarlarından axan azərbaycanlı qanının coşğusu ilə döyüş meydanı söz olan şairim... Dünyanın neçə-neçə hökmdarlarını yola salan, əsrlərin müharibələrinə, qələbələrinə şahid, sözü ilə daimyaşar Füzuli... Yadıma sən düşdün. Çünki Sən Füzuli rayonundan da, füzulilərdən də qocamansan... Adını daşıyan bu yurd yerimizin, ata-baba ocağımızın azad olunması müjdəsini ilk olaraq səninlə bölüşmək istədim. Bölüşdüm də.

### Ruhun şad oldu, Məhəmməd Füzuli

Gözün aydın, Məhəmməd Füzuli, əsası 1827-ci ildə qoyulmuş, Qarabulaq adlanan yaşayış məskəninin əsasında 1930-cu ildə təşkil olunmuş və Qaryagin adlandırılan rayonun 1959-cu ildə Sənin böyük şairimizin 400 illik yubileyi münasibətilə adı dəyişdirilərək Füzuli qoyulan yurd yerimiz düşməndən azad olundu, dedim. Dedim ki, qəbrində rahat yat. Su çiləsin məzarına. Qılıncdan iti qələmini süngərə çevirən Azərbaycan əsgəri bir dastan yazır. Bu dastan "Qarabağ" dastanıdır. Sən də bu dastanın bir boyuna çevrildin. Füzulililər bu gün sevinc içərisindədirlər. 1993-cü ildə doğma ev-eşiklərindən erməni köksüzlərinin zoru ilə didərgin düşmüşdülər. Füzulidə doğulan Füzuliyə həsrət qalmışdı. Füzulidə ev-eşik salan, torpağını canından artıq sevən azərbaycanlılar illərdir ki, bu torpağın ətrini burunlarında hiss edirdilər. Gülündən, çiçəyindən, dərəsindən-düzündən ayrı düşmüşdülər. Sənin qəzəllərinin torpaq sevdalılarına, Vətən aşiqlərinə, həsrətlilərinə çevrilmişdilər. 30 ilə yaxındır ki, dünyanın "ədalətə cavabdehləri" danışır, danışır, danışdıqca da söz həqiqət məhvərindən çıxıb başqa məcralara yönəlirdi. Sənin:

**Gər çox istərsən, Füzuli,**
**izzətin az et sözü**
**Kim, çox olmaqdan**
**qılıbdır çox əzizi xar söz**

Füzulu, Sənin "Əgər sözün hörmətli, dəyərli olmasını istəyirsənsə, miqdarini az et, çünki çox danışmaq çox insanı hörmətdən salıb",- nəsihətini dinləmədi dünyanın "ədalət cavabdehləri". Söz sözlükdən çıxdı, yalanlara qurban getdi. Hansı ki, sən sözü dünyanın tacı, insanlığın açarı, mənəviyyatın varlığı hesab edirdin:

**Ver sözə ehya ki,**
**tutduqca səni xabi-əcəl,**
Edə hər saət səni ol uyqudan bidar söz.

"Sən sözü canlandır, dirilt ki, səni də ölüm yuxusu tutanda o səni diriltsin. Qiymətli sözlər danış ki, öləndən sonra sözlərin hər dəfə xatırlandıqca dirilmiş olasan",-deyirdin. Sözü yalan olanlar ölümlərindən sonra da xatırlanacaq, şair. Lakin tamamilə başqa cür xatırlanacaqlar: bir xalqın əzəli torpaqlarının işğalına göz yumanlar kimi, minlərlə şəhidin qanında boğulanlar kimi, yüzlərlə dinc sakinin, xüsusilə də uşaqların qanlarına əlləri batmış və sözünü tutmayan, sözünün ağası olmayanlar kimi.

### Füzuli "Qarabağ" dastanının növbəti boyu oldu

Füzuli, xalqın dastan yazdı, tarixi "Qarabağ" dastanını yazdı. Bu ali bir dastandır, çünki şəhid qanı ilə, bir də dövlətimizin rəhbərinin kəsərli sözü ilə yazıldı. Qarabağın əsrlərlə yaşı fonunda 30 illik nisgilinin qələbəsi yazıldı. Ali Baş Komandanın böyük Milli Ordumuza əmri, xalqına verdiyi inamla yazıldı bu dastan. Sənin adını daşıyan Füzuli də bu dastanın bir boyu oldu. Qarabağ dağ silsiləsinin cənub şərq ətəklərindən Araz çayına qədər maili düzənlik boyu uzanan, mənbəyini Araz




hövzəsindən alaraq köksündən axıtdığı Quruçay, Köndələnçay, Qozluçay, Çərəkən çayları ilə gözəlliklər məkanı olan, uğrunda hələ əvvəllər, işğalı zamanı 1000-dən artıq eloğlumuzun şəhid olduğu, 1500-dək sağlamlığını itirmiş insanlar olan Füzuli azadlığına qovuşdu. 27 sentyabr 2020-ci il tarixdə şanlı Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı nəticəsində rayonun kəndlərindən Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Aşağı Əbdürrəhmanlı, 9 oktyabrda Yuxarı Güzlək, Gorazıllı, 14 oktyabrda Qaradağlı, Xatunbulaq, Qarakollu, 15 oktyabrda Arış kəndi işğaldan azad edildi. 17 oktyabrda isə Qoçəhmədli, Çimən, Musabəyli, Pirəhmədli, Dədəli, İşıqlı, Cuvarlı kəndləri və Füzuli şəhəri işğaldan tam azad olundu.

### Biz Füzuliyə qayıdırıq

Həyatını Azərbaycan xalqının müstəqilliyinə həsr edən ümummilli liderimizin ardıcılı, qürur mənbəyimiz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 17 oktyabr tarixdə Azərbaycan xalqına müraciətindən: "Biz Füzuliyə qayıdacağıq, biz bütün kəndləri yenidən quracağıq, abadlaşdıracağıq. O kəndlərə həyat qayıdacaq. Necə ki, vaxtilə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan Ordusu Füzuli rayonunun 22 kəndini işğaldan azad edib, o cümlədən Horadiz qəsəbəsini. İndi baxın, görün necə gözəl məkandır. Horadiz qəsəbəsi çox abad, müasir şəhərə çevrilibdir. İşğaldan azad edilmiş kəndlərdə füzulililər yaşayır. Deyə bilərəm ki, bu günə qədər işğaldan azad edilmiş kəndlərdə Füzuli əhalisinin təqribən yarısı məskunlaşıbdır. Ancaq bu gün artıq füzulililərin yaşadıqları kəndlər azad edilib və oraya həyat qayıdacaq, onlar qayıdacaqlar, onlar orada yaşayacaqlar, öz əcdadlarının qəbirlərini ziyarət edəcəklər. Orada bərpa olunacaq məscidlərdə azan səsi eşidiləcək. Biz öz şərəfli missiyamızı yerinə yetiririk. Mən tam əminəm ki, bundan sonra da şanlı Azərbaycan Ordusu işğalçıları torpağımızdan qovmağa davam edəcəkdir".

Bəli, biz Füzuliyə qayıdırıq. Tarixi-dini abidələrlə, xüsusən də türbələrlə zəngin, rayonun Babı kəndində yerləşən səkkizguşəli Şeyx Babi Yaqub (XIII əsr) türbəsinə, Aşağı Veysəlli kəndində XIV əsrə aid Mirəli türbəsinə, Əhmədalılar kəndində orta əsr qəbiristanlığının ərazisində sənduqə formalı qəbirdaşının üzərindəki türbəyə, XIX əsrə aid olduğu söylənilən Cəlil türbəsinə, Qarğabazar kəndində, Şah Abbas karvansarayından yuxarı, qayanın üstündə füzulililərin Şah Abbas adlandırdığı məscidə qayıdırıq. Biz tariximizi qorumağa, gələcək nəsillərə ərmağan etməyə qayıdırıq.

### "Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq"...

Bu fikirləri xalqa müraciətində ölkəmizin rəhbəri söylədi. Bəli, yazılır, yazılacaq da, cənab Prezident. Necə ki, Sizin rəhbərliyinizlə ön cəbhədə Milli Ordumuz torpaqlarımızı bir-birinin ardınca azad etdi, biz arxa cəbhədə olanların da borcu kitablar, əsərlər yaratmaqdır. Yaradacağıq da. Azad olunan torpaqlarımız hər biri bir boy olmaqla, "Qarabağ" dastanını yaratdı. Bir qalır, Sizin dediyiniz kimi döyüş yolu keçənlərlə, hərbçilərlə görüşüb o ağır hərbi əməliyyatları təfsilatı ilə bilmək. Biz bunu da edəcəyik. Ölkəmizin tarixini yazmaq, gələcək nəsillərə çatdırmaq borcumuzdur.

Prezidenti cənab İlham Əliyevin tarixi müraciətindən: "Mən bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu münasibətlə əziz füzulililəri ürəkdən təbrik edirəm. Uzun illərin doğma torpaq həsrəti sona çatır. Biz öz üzərimizə düşən missiyanı şərəflə yerinə yetiririk, ölkəmizin ərazi bütövlüyünü bərpa edirik və bərpa edəcəyik. Füzuli uğrunda döyüşlər ağır döyüşlərdi. Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq. Doğrudan da çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlərdi. Çünki bu 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi".

### Füzuli abadlaşır ki, sakinlərini qoynuna alsın

30 ilə yaxın dövrdə daşı daş üstündə qalmayan yurd yerlərimizdəndir Füzuli. İşğaldan azad olunan bu ata-baba ocağını da digər rayonlarımız kimi abadlıq işləri qoynuna alıb. Qoynuna alıb ki, abadlaşsın, hərtərəfli şərait yaradılsın, saydaşlarımız öz doğma evlərinə tezliklə qayıda bilsinlər.

Şuşanın işğaldan azad olunmasında böyük strateji əhəmiyyətə malik olan Füzuli rayonunda dövlətimizin başçısı ötən il yanvarın 14-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, Füzuli rayonunda hava limanının, oktyabrın 17-də-Füzulinin azad olunduğu gün isə Füzuli-Ağdam avtomobil yolunun, işğal zamanı dağıdılmış Füzuli rayonunun Dövlətyarlı kəndində yeni "ağıllı kənd"in, həmçinin Azərişıq ASC-nin Füzuli şəhərində Rəqəmsal Yarımstansiya İdarəetmə Mərkəzinin təməllərini qoyub.

Ölkə rəhbərinin həmin gün hava limanında görülən işlərlə maraqlanması, Füzuli Mərkəzi Şəhər parkında yaradılacaq şəraitlə tanış olması, ilk yaşayış binalarının və Füzuli Memorial Kompleksinin təməlinin və Füzuli şəhərinin təməl daşının qoyulması yaxın gələcəkdə Füzulinin sürətli inkişafını, sakinlərinin yurd yerlərinə tezliklə qayıdacaqlarını şərtləndirən amillərdir.

Füzulidə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı ölkəmizin başçısı demişdir: "Füzuliyə həyat qayıdır və qayıdacaq. Əminəm ki, maksimum qısa müddət ərzində Füzuli şəhəri də, rayonun kəndləri də çiçəklənəcək. Biz azad edilmiş ərazilərdə ən müasir texnologiyaları tətbiq edirik. Bu, artıq reallıqdır. Bunu mən müharibə başa çatandan dərhal sonra bəyan etmişdim və bunu bu gün hər kəs görə bilir".

### "Ağıllı kəndlər": Ötən il Ağalı, bu il isə Dövlətyarlı

Ölkə rəhbəri ötən ilin aprelində Zəngilan rayonunda Ağalı "ağıllı kənd" in təməlqoyma mərasimində demişdir: "Ağalı kəndinin təməl daşının qoyulması "Böyük Qayıdış"ın birinci addımıdır. Burada tətbiq olunan texnologiyaların bir çoxu Azərbaycanda yoxdur. Bu, birinci layihədir, pilot layihədir. İndi artıq evlər tikilmiş, kommunikasiyalar quraşdırılmış, burada yaşayacaq insanların hər birinin işlə təmin edilməsi üçün tədbirlər görülməkdədir".

Birinci "ağıllı kənd" pilot layihəsinin icrası, əsasən, 5-yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələri üzrə aparılıb. Burada tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi ev tikilmiş, ərazi telefonlaşdırılmış, internet, Wi-Fi, mərkəzləşdirilmiş istilik sistemi, su, qaz, elektrik xətləri çəkilmişdir. Kəndin rahat yolları, buradakı gecə işıqlandırmaları, müasir nəqliyyat vasitələri sakinlərin istifadəsinə veriləcək ki, bütün bunlar kəndin göz oxşayan, füsunkar təbiət mənzərələri ilə harmoniya təşkil edəcək.

Bu il isə Füzuli rayonunun Dövlətyarlı kəndində "ağıllı kənd"in yaradılması nəzərdə tutulub. Prezident İlham Əliyev 2022-ci ilin birinci yarısının yekunları ilə bağlı müşavirədə bu layihə barədə demişdir: "Ağalı kəndinin sakinləri artıq bu il Ağalıda yerləşəcəklər, orada yaşayacaqlar. Bu il Ağalı kəndinin açılışı olacaq... Füzulinin Dövlətyarlı kəndinin yaradılmasına bu il başlanacaq. Bu, bir neçə kəndi birləşdirən layihədir. Ağalı kəndindən daha böyük yaşayış yeri olacaq. Azad edilmiş digər rayonlarda kəndlərin yenidən qurulması layihələri hazırlanır və şəhərlərlə paralel olaraq biz kəndləri də bərpa edəcəyik".

### Böyük Məhəmməd Füzulidən Paşinyana nəsihət

Məhəmməd Füzuli Məhəmməd adlı paşaya yazdığı qəsidədə hökmdarın ölkəni ədalətlə bəzəməyə borclu olduğundan, ədalətsizlik nəticəsində ölkədə nə kimi fitnə-fəsad törənəcəyindən danışırdı. İki il öncə böyük ərazilər işğaldan azad olunmuş Füzuli rayonundan böyük Məhəmməd Füzulinin bu günlə səsləşən həmin qəsidəsindən bir parçanı Paşinyan nəsihət şəklində qəbul etsəydi, Ermənistanda yaşayan insanları ölümə sürükləməzdi, öz üzərinə qaldırmazdı. Bu nəsihəti dinləsəydi, başqasının torpağından çıxmaq istəməyən, bunun üçün də xalqının qocasını, qadınını müharibəyə cəlb edən, döyüşmək istəməyən əsgərləri zəncirləyən, ölkədən qaçıb canını qurtarmaq istəyən insanları güllələtdirən bu ədalətsiz "rəhbər" ölkəsində hansı vəziyyətin yaranacağını təxmin etmiş olardı.

**Vay ol hakimə kim,**
**eyləyə hökmündə xəta,**
**Qıla məzlumləri**
**mərhəmətindən məhrum...**

***Mətanət Məmmədova***

# Azərbaycan və Qırğızıstan arasında münasibətlərin inkişafında yeni dövrün başlanğıcı

Azərbaycan müstəqillik illərində dünya ölkələri ilə əlaqələrinin inkişafını diqqətdə saxlayıb, dövlətlərarası münasibətlər yeni mərhələyə yüksəlib. Azərbaycan ilə dünyanın bir çox ölkələri arasında imzalanan sənədlər, ölkələr arasında münasibətlərin daha da genişləndirilməsi istiqamətində atılan addımlar siyasi, iqtisadi və mədəni sahədə əlaqələrin dərinləşməsinə yeni imkanlar açıb. Bu əlaqələr dostluq, qarşılıqlı münasibətlərə söykənir. Azərbaycanın iştirakçısı olduğu görüşlər, təşəbbüsləri, beynəlxalq layihələri ölkəmizin nüfuzunun artdığının və etimadının yüksəldiyinin daha bir göstəricisidir. Bu münasibətlər dostluq, qarşılıqlı anlaşmaya söykənir. Azərbaycanın Qırğızıstan ilə münasibələri də dostluğun və qardaşlığın təcəssümüdür. Ölkələrimiz BMT, ATƏT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, MDB və Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli formatda sıx qarşılıqlı fəaliyyət göstərir. Bu günlərdə Qırğızıstan Respublikasının Prezidenti Sadır Japarov və onun rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyətinin Azərbaycana rəsmi səfəri iki ölkə arasında münasibətlərin inkişafında yeni dövrün başlanğıcını qoymuş oldu. İkitərəfli qarşılıqlı fəaliyyətin geniş spektri nəzərdən keçirilib müxtəlif sahələri əhatə edən mühüm sənədlərin imzalanması ilə bundan sonra əlaqələrin inkişafı üçün hüquqi baza formalaşdırmış oldu. Vurğulayaq ki, dövlət başçıları tərəfindən imzalanan "Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Bəyannamə", "Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının yaradılması haqqında Memorandum" ölkələrimizin gələcək əlaqələrinin daha da intensivləşləşməsinə böyük zəmin yaratdı. Bu sənədlərin imzalanması ölkələrimizin münasibətlərini keyfiyyətcə yeni səviyyəyə çatdırdı. Dövlət başçısı dövlətlərarası imzalanan on sənədin arasında ikisini - Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni və Dövlətlərarası Şuranın yaradılması haqqında Memorandumu xüsusi olaraq vurğulayıb: "Hər iki sənəd bizim münasibətlərin xarakterini və formasını əsasən qabaqcadan müəyyən edəcək. Strateji tərəfdaşlıq qarşılıqlı fəaliyyətin yüksək səviyyəsidir və bizi məhz strateji xarakterli əməkdaşlığa kökləyir. Biz Dövlətlərarası Şura çərçivəsində həm ikitərəfli gündəliyə aid məsələləri, həm də regional və beynəlxalq problemləri daha effektli və fəal surətdə müntəzəm müzakirə edəcəyik". Sözsüz ki, həm Strateji Tərəfdaşlıq haqqında Bəyannamə və Dövlətlərarası Şuranın yaradılması haqqında Memorandum böyük siyasi əhəmiyyət kəsb edir. Bu sənədlər ölkələrimizin ikitərəfli fəaliyyətini eləcə də, regional və beynəlxalq məsələlərin daha səmərəli və çevik şəkildə koordinasiyasının hüquqi bazasıdır.



*Əvəz Qocayev*
*AAYDA İdarə Heyətinin sədr müavini,*
*Yeni Azərbaycan Partiyası Nəsimi rayon ərazi partiya təşkilatının sədri*

Səfər çərçivəsində investisiya layihələrinə dair də bir çox məsələlər müzakirə edildi. "Biz Qırğızıstanda və Azərbaycanda həyata keçirilmiş layihələr və onları qarşılıqlı faydalı şəkildə necə əlaqələndirməyin mümkün olması barədə fikir mübadiləsi aparmışıq", - deyən Cənab Prezident bildirib ki, kənd təsərrüfatında əməkdaşlığın inkişafı ilə bağlı məsələləri də müzakirə etmişik: "Burada da böyük perspektivlər var. Yəni, məsələlərin əhatə dairəsi genişdir". Artıq dövlətlərarası qarşılıqlı münasibətlərin keyfiyyətcə yeni səviyyəyə çatdırılması üçün şərait var. Yaradılan dövlətlərarası şura ölkələr arasında əməkdaşlığın daha da genişlənməsinə və möhkəmlənməsinə töhfə verəcəkdir. Onu da vurğulamaq yerinə düşər ki, ölkələrimizin bütün sahələri əhatə edən əməkdaşlığı Türk Dövlətləri Təşkilatının daha da güclənməsinə xalqlarımız arasında inteqrasiya prosesinə də öz töhfəsini verəcək. Dövlətlərin ortaq tarixi, mədəni irsi, dili, dini, adət və ənənələri bu əlaqələri daha möhkəm edəcək.

ŞƏRH

# Rusiya tanklarını Dnestryanıya tərəf çevirir?

*Ukrayna savaşı regional müharibəyə çevrilmək təhlükəsində, növbəti hədəf Moldova ola bilər!*

**1990-cı ilin 2 sentyabr tarixində Moldovadan ayrılaraq "müstəqilliyini" elan etmiş "Dnestryanı Moldova Respublikası" ("DMR") separatçı rejim hüdudlarında son iki gündə baş verən iki hadisə diqqətləri cəlb etməyə bilməz. Belə ki, yalnız Moldova hüdudları ilə deyil, həm də Ukrayna ilə sərhəddə yerləşən separatçı rejimin "paytaxtı" Tiraspolda əvvəlcə "Milli Dövlət Təhlükəsizliyi" binasına qumbaraatandan atəş açıldı, daha sonra isə Mayak deyilən məntəqədəki radiotelemərkəzin ərazisində partlayış meydana gəldi.**

Artıq bu barədə müxtəlif, eləcə də Moldova KİV-ləri də informasiyalar yayıblar. Xəsarət alanlar haqqında məlumatlar verilməsə də, artıq bu məsələdə ən çox Rusiyanın əlinin olduğu iddiaları irəli sürülməkdədir.

### Separatçı rejimin əsas məqsədi isə heç də "müstəqil respublika" kimi qalmaq deyil, əksinə, Rusiyaya birləşməkdən ibarətdir

Məlumdur ki, qondarma "Dnestryanı Moldova Respublikasının" elan edilməsi prosesi məhz SSRİ-nin süquta uğradığı vaxtlardan başladı və separatçılara ən çox dəstəyi də Rusiya göstərdi. Əbəs deyil ki, 30 ildir ki, separatçı rejimin əsas müdafiəsini Rusiya sülhməramlıları kontingenti həyata keçirməkdədir.

Daha dəqiq desək, Rusiyanın müxtəlif hərbi hissələri bu əraziyə cəlb ediliblər. Məhz bu baxımdan, hazırda orada baş verən son olayların analizini aparmamışdan öncə bəzi xatırlatmaları da etmək yerinə düşərdi. Belə ki, bir neçə il davam edən silahlı qarşıdurmalardan sonra "DMR" problemi dondurulmuş münaqişə predmeti kimi də qiymətləndirilir. Separatçı rejimin əsas məqsədi isə heç də "müstəqil respublika" kimi qalmaq deyil, əksinə, Rusiyaya birləşməkdən ibarətdir.

Qeyd edək ki, 2016-cı ilin 17 sentyabr tarixində qondarma rejimin "prezidenti" 17 sentyabr 2006-cı ildə keçirilmiş qanunsuz "referendumun" nəticələrinə istinad edərək "qanunvericilik bazasını" Rusiyanın bazasına müvafiq olaraq "təsdiq" edib, eləcə də növbəti mərhələdə "DMR"in Rusiya Federasiyasının tərkibinə qatılacağını bildirib. Artıq Rusiya Federasiyasının bayrağı separatçı rejimin ikinci dövlət bayrağı kimi "qanunla" müəyyən edilib.

### Partlayışları hansı tərəf törədib?

Məhz bu reallıqlardan həm də belə bir nəticə hasil etmək mümkündür ki, hazırda Ukraynada hərbi əməliyyatlar keçirən Rusiya regiondakı mövqelərini möhkəmləndirmək üçün uzun illər dondurulmuş saxlanılan Dnestryanı problemini yenidən qabartmağa cəhdlər göstərir. Bu baxımdan, haqqında bəhs edilən hər iki partlayışın məhz Rusiyanın xüsusi xidmət orqanları tərəfindən təxribat-diversiya məqsədi ilə törədildiyi daha çox ehtimal olunmaqdadır.




Son vaxtlar Moldova Respublikasının



xanım prezidenti Maya Sandu Ukraynada baş verən məlum olaylarla bağlı Rusiyanın hərbi müdaxiləsini sərt şəkildə tənqid atəşinə tutub və böhran başlayan andan Moldova Ukraynadan olan qaçqınları qəbul etməklə yanaşı, onların üçüncü ölkələrə çıxışları üçün bütün mümkün şəraitləri yaradıb.

Və bu gün Moldova Respublikasının siyasi dairələri də yaxşı bilirlər ki, bir az da olsa boş dayansalar Ukraynada baş verənlərin qığılcımları bu ölkəyə də sıçraya bilər. Necə deyərlər, "rus ayısının" gözü qızarıb və o, qarşısına çıxan hər maneəni dağıtmağa hazırdır.

### 2004-cü ildən NATO-ya üzv olan Rumıniyanın məqsədinin Moldovanı yenidən tarixi ərazilərinə geri qaytarması və Moldovanın da bu faktoru dəstəkləməsi kimi paralel maraqları mövcuddur

İddialar var ki, Moldovanın tarixi parçası olduğu Rumıniya da son vaxtlar cərəyan edən hadisələr səbəbindən ehtiyat tədbirlərini görür. Məsələ ondadır ki, 2004-cü ildən NATO-ya üzv olan Rumıniyanın məqsədinin Moldovanı yenidən tarixi ərazilərinə geri qaytarması və Moldovanın da bu faktoru dəstəkləməsi kimi paralel maraqları mövcuddur. Həmçinin bu gün Moldova silahlı qüvvələrində rumın zabitlərinin və yüksək rütbəli komandan heyətlərinin fəaliyyət göstərmələri də artıq sirr deyil.

Və bunu yaxşı bilən, görən və dərk edən Rusiya Ukraynaya qarşı apardığı müharibədə regional strateji mövqelərini itirməməsi, əksinə daha çox qazanması üçün "DMR" kartını yenidən ortaya atmaqla əslində Moldovaya mümkün hərbi müdaxiləsini reallaşdırmaq istəyindədir. Ən azından, bu ehtimallar daha çox görünməyə başlayıb.

Ona görə də "DMR"də baş vermiş hər iki partlayışın Rusiya diversiya qrupları tərəfindən həyata keçirildiyi iddia olunmaqdadır. Buna daha bir səbəb isə Ukraynanın Rusiyaya qarşı güclü müqavimət göstərməsi faktıdır. Hələ fevralın 24-dən əvvəl, yəni hərbi əməliyyatlara qədər iddia olunurdu ki, Rusiya uzağı iki həftəyə Kiyevi mühasirəyə alaraq işini bitirəcək. Ancaq üç ayı keçən hərbi əməliyyatların hətta bir neçə il davam edəcəyi mümkünlüyü də bildirilir. Onda Rusiyanın cəbhə xəttini dəyişərək məhz "DMR" istiqamətindən də hərəkətə keçməsi



planları da kifayət qədər mümkün görünür. Buna qədər isə əldə əsas olmalıdır və bu əsas Moldovada rumın zabitlərinin yerləşməsi və NATO ölkəsi olaraq bazalarını qurmaq iddialarıdır.

Beləliklə, bu cür ehtimal və nəticə çıxarmaq olar ki, regionda daha bir dondurulmuş münaqişə ocağının alovlanacağı görünməkdədir. Bu ocağın Moldovada alovlanması isə baş verən iki partlayış olaylarından sonra daha çox görünməyə başlayıb.

Yeri gəlmişkən, Moldovadan ayrılaraq "müstəqilliyini" elan edən və bu gün Rusiyaya birləşmək planını gizlətməyən "DMR" adlı separatçı qurumun Qarabağdakı separatçı rejimlə də əlaqələri mövcuddur və bunu sübut edən fotolar da fakt kimi göstərilə bilər!

***Rövşən RƏSULOV***

ANALİTİK+FOTOLAR

# “““Milli Şura” uğursuzluğa düçar olub”

**“Azərbaycan dövlətinin inkişafına, stabilliyinə və beynəlxalq aləmdə artan nüfuzuna qısqanclıq hissi ilə yanaşan xarici qüvvələr əlaltıları rolunda çıxış edən dağıdıcı müxalifət vasitəsilə uğurlara kölgə salmağa çalışırlar”. ”Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov da ”Səs” qəzetinə açıqlamasında bildirib.**

Onun sözlərinə görə, müxalifət lidelərinin özlərinə sərf edəndə və xarici qüvvələrin tapşırığı olanda onlar hansısa bir məsələ ilə bağlı bir araya gəlirlər: ”Deyəsən, bu dəfə də müxalifətə növbəti bir tapşırıq gəlib ki, onlar aksiyaların keçirilməsi ilə bağlı çağırışlar



edirlər. Onlara sual vermək lazımdır ki, bu illər ərzinsə siz müxalifət görün necə dəfə bu cür mənasız və heç kəsə lazım olmayan aksiyalar, mitinqlər keçirmisiniz, amma hər dəfə də uğursuzluğa düçar olmusunuz. Keçirdiyiniz aksiyalarda sizin yaxınlarınızdan və tanışlarınızdan başqa heç kəs olmayıb. Yəni uğursuzluğa düçar olmusunuz və bundan sonra da olacaqsınız. Bir sözlə, ”Milli Şura”nın, AXCP-nin Müsavatın və digər xaricdən maliyyələşən qüvvələrin məkrli planları bu günə qədər baş tutmayıb və bundan sonrada baş tutmayacaqdır. Çünki onların Azərbaycan xalqı tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Demək olar ki, müxalifətin var olub, olmaması cəmiyyət üçün maraqlı deyil. Belə olan halda da, yaxşı olardı ki, müxalifət sakitcə öz yerində otursun”.

***Gülyana***

# Qara məni basınca... Qabaqlayıcı zərbə anlayışı...

**...Onu necə deyirlər...”qara məni basınca, qoy, qaranı mən basım”. Ramzan Kadırov demiş, bu deyən lap ”şaytan” əməlinə bənzəyir...nə isə.**

...Hə, deməli, ”Donetsk Xalq Respublikası”ndakı ”Pyatnaşka” könüllü batalyonunun komandiri Axra Avidzba bu günlərdə məxvi və eyni zamanda ”qiymətli” bir açıqlama ilə...icazə verin deyim: Kiyevin Rusiyaya hücum planı barədə açıqlama verib. Beləliklə, SİA onun ”RİA Novosti”də yer alan ”qiymətli” (...və eyni zamanda məxvi) açıqlamasına istinad edir.

Deməli, Avidzbananın dediyinə görə, Rusiya Ukraynaya hücum etməklə, Ukrayna ordusunun qarşı tərəfə ediləcək hücum planını qabaqlayıb. Onun dediyinə görə burada saat və ya bəlkə də dəqiqı söhbəti olub.

Yəni onun dediyindən belə başa düşülür ki, Rusiya hücuma keçməsəydi, bunu Ukrayna edəcəkdi. Sadəcə olaraq burada Rusiyanın ”adi saat tezliyi” məsələsi hər şeyi həll edib. Təbii ki, mən hərb sahəsinin adamı deyiləm deyə bəlkədə bunu düzgün çatdıra bilmirəm...

Ona görə də, gəlin, könüllü batalyon komandiri Axra Avidzbanın özünü dinləyək: ”Hər şeyi planlaşdırmışdılar. Bir gündə edilməliydi. Sadəcə olaraq, qabaqlayıcı zərbə anlayışı var və o da çatdırılıb. Ona görə də vəziyyəti dəyərləndirən və belə ağır əmr verən Ali Baş Komandanımıza təşəkkür edirəm”.

Təbii ki, burada hərbi sirlərin əlamətləri olduğu üçün Sizə də çox dərinə getməyi məsləhət görmürəm. Amma o ”qarabasmanın” nə yeridir...

***Ağasəf Babayev***





İLHAM

# “Azəriqaz” “Azal”ı da qazlayır

Azərbaycanın xalq artisti Niyaməddin Musayevin ”Dünya sənin, dünya mənim, dünya heç kimin” mahnısını nəinki Azərbaycanda, eləcə də türk-müsəlman dünyasında çoxları əzbər bilir. Bu mahnıdan anlaşılan məna ondan ibarətdir ki, ey qudurğan vəzifə mənsubları və harın iş adamları bu dünyaya çox da bel bağlamayın, bir gün olar ki, gərdişi-dövran dəyişər və siz tələtümlər burulğanında heçə çevriləsiniz. Necə ki, özlərini bəzi rayonların hakimi-mütləqi olaraq aparan, hər kəsə öz güc və qüdrətlərini göstərməyə çalışan neçə-neçə icra hakimiyyətlərinin başçıları indi dəmir barmaqlıqlar arxasındadırlar. Bir zaman gözləri ayaqlarının altını görməyən varlı iş adamları dövran dəyişdiyindən indi bir həsir, bir də Məmmədnəsir olublar. O gün bir xəbər oxudum ki, bir neçə il əvvələ qədər şirkətləri, mağazaları, restoranları, bahalı xarici avtomobilləri, evləri və villaları omuş bir iş adamı hazırda oğlu ilə birlikdə vaqonda yaşayırlar. Bu kimi ibratamiz hadisələri gördükdə, düşünürsən ki, şair beləleri üçün nə gözəl deyib:

**Dünyaya çox gəlib at oynadanlar,**
**Qılınc qaldıranlar, qalxan tutanlar.**
**İnsanı qul deyib, alıb satanlar,**
**Möhtac olub, bir yorğana görmüşəm.**

Hikkəli, iddialı vəzifə mənsubu və ya varlı-karlı iş adamı başa düşmür ki, heç də bacarıqlarına və ya istedadlarına görə yuxarı mərtəbəyə yüksəlməyib. Dövran onları şərafətli zada çevirib. Elə dövran yetişər ki, palançıdan belə pay ummaq zorunda qalarlar. Deyirlər, bir gün xeyriyyəçi milyonçu Musa Nağıyev faytonda oğlu ilə birlikdə şəhərin küçələrini gəzirmiş. Oğlu gözəl bir binanı gördükdə, ”ata, bu bina kimindir” deyə sual edir, xeyriyyəçi ”bizimdir” cavabını verir. Oğlu əli ilə daha bir binanı göstərib, ”bəs, bu bina kimindir” sualını tamamlamamış milyonçu, ”o da bizimdir” deyə bildirir. Cavablardan xoşhal olan oğul, qürrəli şəkildə ”o bina da o bina da bizimdir” deyə ardıcıl suallar verir. Xeyriyyəçi gülümsəyir və oğluna deyir: ”Dövran bizimdir, oğul, dövran”. İndi dünyanın hansısa tərəfdən zopaya və ya tələtümə məruz qaldığından bəzi bacarıqsız, savadsız, intellektual səviyyəsi də sıfıra bərabər olanlar mal-mülk sahibidirlər, hündür-hündür kreslolarda oturub, özlərindən qat-qat, bilikli, savadlı insanlara ədalı şəkildə göstərişlər verirlər. Beləleri bəzən o dərəcədə yollarını azırlar ki, tabeçiliyində olan insanları təhqir etməkdən belə çəkinmirlər. Təəccüb doğuran məqamlardan biri də ondan ibarətdir ki, bəzi balaca ”padşah”lar, yolunu azanlardan olan iş adamları cəmiyyətin onların fəaliyyətinə sərt təpki göstərmələrinə baxmayaraq, əndrəbadi əməllərindən əl çəkmirlər, əksinə, cəmiyyətə açıq saymazyana hərəkətlərini bir qədər də genişləndirirlər. Misal olaraq ”Azərqaz” deyilən ictimai maraqlara zidd fəaliyyət yolu tutan bir qurumun sağa-sola istehlakçıların hüquqlarını kobud şəkildə pozmalarını, təbii qazın limitini aşağı salmaları və qarşılığında qazın keyfiyyətini bərbad vəziyyətə qoymalarını, az qala kvartalnı sayğac dəyişmə şousunu göstərmələrini göstərmək olar. O gün də ”Azərqaz”ın hörmətli baş direktoru jurnalistlərin gözünün içinə hörmətsizcəsinə baxıb deyir ki, ölkə əhalisinin 80 faizi qaz limitini keçməyib. Vallahi-billahi böyük-böyük adamları yalançılıqda və digər əməllərdə suçlamaqdan qorxuram. Səbəbim də var. Ancaq baş direktorun ”əhalinin 80 faizi qaz limitini keçməyib” fikrini səsləndirməsindən elə başa düşdüm ki, müəllim çaşıb. Yəqin sonradan KİV-lərdə dediklərini oxuyanda təəccüblənib, öz dediyinə özü də inanmayıb. Ola bilsin ki, ”Azərqaz” ASC-nin mətbuat xidmətinin rəhbəri Eldəniz müəllim onu aldadıb. Yəni, yanlış məlumat yazıb verib, müəllim də jurnalistlərin diqqətinə çatdırıb. Bu yerdə istədim bir əcayib-qərayib, lətifə ithaf edim, ”Azərqaz” rəhbərinin açıqlamasına, ancaq açığı qorxdum və biədəb lətifəni qeyd etməkdən imtina etdim. Elə həmin anda yadıma Qida Təhlükəsizliyi Agentliyinin Milli Məclisin müzakirəsinə çıxardığı ”Qida təhlükəsizliyi haqqında qanuna” adamın ətini ürpəşdirən, qanını donduran müddəaların əlavə olunmasını israr etməsi düşdü. Əcəba, nədir bu müddəalar. Əxz edim, bilməyən oxucularımız da məlumatlı olsunlar. Deməli, qanuna görə, geni dəyişdirilmiş meyvə-tərəvəz məhsullarını Azərbaycanda istehsal etmək, becərmək, idxal və ixrac etmək olar. Oxucunun daha aydın baş düşməsi üçün misal çəkim: Qanuna istinad etməklə, eşşəyin, donuzun, qoyunun, keçinin qanını almaya, armuda, tərəvəzə və digər məhsullara yeritməklə istehsal edib, Məmmədə, Arifə, Cəmilə və digər minlərlə ölkədaxili soydaşımıza satmaq olar. Bu, artıq sözün bitdiyi məqamdır. Çünki insanların sağlamlığına, təhlükəsizliyinə bu dərəcədə laqeyd fəaliyyət yolu tutmaq, artıq o vəzifə mənsublarının insanı dəyərlərdən çox uzaq olduğunu təsdiqləyir.

Saymazyana hərəkətlərinə görə, ”Azal” da ”Azərqaz” və ”Qida Təhlükəsizliyi Agentliyi”ndən heç də geri qalmır. Hətta demək olar ki, müəyyən məsələlər də onları üstələyir. Fikir vermişəm, az qala 10-15 ildir ki, cəmiyyətin bütün təbəqələri, hətta Milli Məclisdə deputatlarımız aviabiletlərin baha olmasına görə, ”Azal”ı yaş yuyub, quru sərirlər. Ancaq nə faydası ”Azal” ”dəyirman öz işindədir, çak-çak baş ağrıdır” məsələnə əsaslanıb, öz bildiyini davam etdirir. Deyirlər, ”dinsizin öhdəsindən, imansız gələr”. ”Azal”ın da saymazyana qiymət fəaliyyətinə, ”Azərqaz” layiqli cavabını verir. Yəni, ”Azərqaz” ”Azal”ı qaz kimi ayın bu başı da, o başı da yolur. Artıq ”Azal”ın təbii qaza olan borcuna görə yüklənməsi səbəbindən, vay-şüvəni, Amazon meşələrindəki papuqaylara qədər gedib çıxıb. Bu baxımdan, ”Azal”ın vəziyyəti fənadır.

Hər bir cəmiyyətdə olduğu kimi, bizim də çevrəmizdə kifayət qədər mənəvi dünyası zəngin, mehriban və xeyirxah insanlar var. Məhz bu insanların hesabına cəmiyyətimiz gözəldir, həyata bağlılıq, dünyaya sevgi, insanlığa hörmət var. Bir neçə dəqiqəlik fikrə dalıb, rahatca saf-çürük etsən, Azərbaycanda xeyirxah, mehriban insanların sayının fəaliyyətləri boş qazandan başqa bir şey olmayan məxluqların sayından qat-qat çox olduğu qənaətinə gəlmək olar. Müsbət rəqəm təskinlik verir. Düşünürsən ki, bir qədər də tərpəniş olsa, boş qazanların sonunu gətirmək olar. Hələlik isə, onlar var-gəldədirlər. Bir də görürsən və ya dost-tanışdan eşidirsən ki, cibi pullu, kreslolu vəzifə sahibləri, sözün həqiqi mənasında, həm lotuluq, həm də qoçuluq edirlər. Maddi imkanlarına və əliuzun olmalarından istifadə edərək, imkansız, arxasız insanlara yuxarıdan aşağı baxırlar. Bəzən elə məqam olur ku, bu əndrəbadi piylənmiş məxluqlar terroçularsayağı açıq şəkildə iddialarını və hikkələrini ortaya qoyurlar. Elə bizim bazarlara, ticarət obyektlərinə baxsan, onların əməllərini tam şəkildə görmək olar. Bir də görürsən ki, bu doymuş məhlullar saymazyana bəyan edirlər ki, ”filan məhsulların və ya tələbat mallarını monopoliyaya mən almışam, lap əcəb etmişəm”. Vay o dəqiqələrə ki, kimsə cəsarətə gəlib, özündən razı əndrəbadi fikirlər söyləyənin ağzından vurmağa, ən azı onu dediklərinə peşman edə. Fənə bundan sonra yaşanar. Cəsarətli biçarəni qoçu dəstəsi dövriyyəyə alıb, qarnına çoxsaylı təpik, yumruq vurarlar. Ola bilər ki, bununla biçarə canını qurtarmasın, yuxarıdakı əmmaməli mollabaşların dəstəyi ilə onu polis bölməsinə saldırıb, gününü 10-15 günlüyə də olsa qara edər. Ona görə də, çox vaxt, sadə, kasıb, eləcə də ziyalı təbəqə piylənmiş məxluqların həngamələrinə göz yumurlar, susmağa üstünlük verirlər. Ona görə yox ki, qorxurlar, çəkinirlər. Sadəcə, onların səviyyəsinə enib, özlərini hörmətdən salmaq istəmirlər. ”Başsız atlı” romanında belə bir fikr oxumuşdum, ”çalış səviyyəsiz adamla mübahisə etmə, o səni öz səviyyəsinə endirib, məğlub edər”.

Bir sözlə, bir para xalqın sərvətini talamaqla özlərinə çox böyük varidat toplamış məxluqlar at oynadır, əndrəbadi işlər, əməllər törədirlər. Bu da pis-pis hadisələrin baş verməsinə yol açır. Təbii ki, onların islah olunmaları üçün sözün doğru mənasında qara maskalılara ehtiyac var. Sonda beynimdə qar-qura fikirlər dolaşır, görən dünya belə gəlib, belə də gedəcəkmi? Cavabını da özüm verirəm, bəli, dünya elə, belə gəldiyi kimi, belə də yolunu davam edəcək. Dəyişən, forma olacaq, məzmunca dünya elə həmən dünya olacaq.

# Aleksandr Şatilov: "Moskva İrəvanı Bakıya güzəştə sövq edəcək"

**Rusiya hökuməti yanında Maliyyə Universitetinin Sosial Elmlər və Kütləvi Kommunikasiyalar fakültəsinin dekanı Aleksandr Şatilov "Caliber" analitik mərkəzinə müsahibəsində regionda gedən proseslər və gözlənilən hadisələr haqda fikirlərini bildirb. Müsahibəni oxucularımıza təqdim edirik.**



***- Aleksandr Borisoviç, Paşinyanla Putin arasında Moskvada keçirilən son danışıqların nəticələrini necə qiymətləndirirsiniz?***

- Mənə elə gəlir ki, Moskva hələ Qarabağda aktiv oyun əhval-ruhiyyəsində deyil, üstəlik, bu trasda vəziyyətin gərginləşməsi birmənalı olaraq Rusiyaya heç bir fayda vermir. Ona görə də Vladimir Putinin əsas vəzifəsi münaqişənin hər iki tərəfi üçün məqbul sülh formulu tapmaqdır. Eyni zamanda, Rusiya Federasiyasının mövcud vəziyyəti (Ukraynadakı xüsusi hərbi əməliyyat, sanksiya müharibəsi və s.) nəzərə alaraq, İrəvanı Azərbaycan tərəfinə itələyərək onu bəzi güzəştlərə getməyə sövq edəcəyini istisna etmirəm.

***- Rusiya və Ermənistan liderlərinin birgə Moskva bəyanatının bəndlərindən birində deyilir ki, tərəflər ksenofobiyanın və neonasizmin istənilən təzahürlərinə qarşı səyləri artırmaq barədə razılığa gəliblər. Bu, o deməkdirmi ki, Rusiya Ermənistanın Ukrayna ilə münaqişədə mümkün iştirakını nəzərdən keçirir?***

- Mənə elə gəlir ki, hazırda Rusiya rəhbərliyi anlayıb ki, postsovet tərəfdaşlarından heç biri Ukrayna münaqişəsində iştirakə "imzalanmayacaq". Hətta Belarus, indiyə qədər əsasən diplomatik dəstək və RF Silahlı Qüvvələrinin bazası üçün ərazisinin təmin edilməsi ilə məhdudlaşır. Moskva daha real və praqmatik düşünür və hərəkət edir- Ukraynanın denazifikasiyasını özü təkbaşına həyata keçiriləcək.

Postsovet məkanındakı digər "qaynar nöqtələrə" gəlincə, hələlik onları "dondurmaq" Kremlin maraqlarına uyğundur.

***- Əgər Rusiya neonasizmə qarşı çıxırsa, niyə bu prinsipial mövqe Qaregin Njdeni İrəvanın mərkəzində ona abidə ucaltmaqla şöhrətləndirdiyi Ermənistana şamil edilmir?***



- 2018-ci ildə Ermənistanda baş verən rəngli inqilab Rusiya Federasiyası üçün son dərəcə xoşagəlməz sürpriz oldu. Birincisi, erməni elitası uzun illər Ermənistanın əsas hamisi və sponsoru Qərb dövlətləri olmasına baxmayaraq, öz siyasi oyunlarında Moskvaya açıq-aşkar göz yumdu.

İkincisi, 1998-ci ildən bəri ilk dəfə olaraq Ermənistanda açıq-aşkar anti-Rusiya, qərbyönlü qüvvələr hakimiyyətə gəldi - faktiki olaraq, Levon Ter-Petrosyan 20 illik fasilədən sonra hakimiyyətə qayıdıb, o da vaxtilə əsas rəhbərlərdən biri olub. SSRİ-nin "qəbirqazanlar"ındandır- 1990-cı ilin avqustunda onun fəal iştirakı ilə Ermənistanın Müstəqillik Bəyannaməsi qəbul edildi və bu, digər ittifaq respublikalarının "suverenlik paradının" başlanğıcını qoydu. Nikol Paşinyan əslində Ter-Petrosyanın "reinkarnasiyası" idi, çünki o, hakimiyyətə gələrkən Rusiya Federasiyasına qarşı tənqidi ritorikadan çox istifadə edib, qərbyönlülüyünü hər cür nümayiş etdirib, Amerika və Avropanın siyasi mərkəzləri ilə fəal əməkdaşlıq edib. "Rəngli inqilablar" texnologiyalarının köməyi ilə Qərbə zidd olan hakimiyyətlərin devrilməsində iştirak edib.

Paşinyan baş nazir olduqdan sonra Moskvadan uzaqlaşaraq Vaşinqton və Brüsselə doğru sürüklənməyə davam etdi, eyni zamanda müasir Ukraynanın ruhuna uyğun çirkin hərəkətlər etdi. Eyni operadan Hitlerin şəriki Qaregin Njdenin tərənnümünü göstərmək olar. Təəssüf ki, indi Ermənistanın rəsmi hakimiyyət orqanları Sovet marşalı Baqramyana deyil, faşist Njdeyə hörmət edir. Və bu, əlbəttə ki, müasir Ermənistan rəhbərliyi ilə qarşılıqlı əlaqə baxımından Moskvaya ruh yüksəkliyi əlavə etmir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***- Putin və Paşinyan Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası üzrə ikitərəfli komissiyanın yaradılmasını sürətləndirmək barədə razılığa gəliblər. Nə qədər vaxt aparacaq?***

- İstisna etmirəm ki, ikitərəfli komissiyanın yaradılması prosesi sürətləndiriləcək, başqa məsələ odur ki, sərhədlərin delimitasiyası qeyri-müəyyən müddətə uzana bilər.

***- Paşinyanla Putinin görüşündən sonra Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması ilə bağlı müsbət siqnallar gözləmək lazımdırmı?***

- Düşünürəm ki, Paşinyana müəyyən "sülhməramlı" siqnallar göndərilib, digər məsələ odur ki, Moskva bu prosesdə daha yaxından iştirak etmək istərdi, bu da yalnız Rusiyanın Ukraynada xüsusi əməliyyatı başa çatdıqdan sonra mümkün olacaq.

***- İndiki geosiyasi vəziyyətdə Rusiya Avropanın Ermənistan-Azərbaycan gündəmində vasitəçilik təşəbbüsünü Cənubi Qafqazda ciddi rəqabət kimi qiymətləndirirmi?***

- Əgər Avropa İttifaqının "kollektiv qurum" kimi təsirindən danışsaq, burada Rusiya rəqabətdən o qədər də qorxmur, çünki indi Aİ özünün, ilk növbədə, sosial-iqtisadi xarakterli problemlərinin həllində bataqlığa düşüb. Amma Cənubi Qafqaza nüfuz etmə və anqlosaksların (xüsusən də ingilislərin) sülh prosesinə cəlb olunması Moskvanı xeyli narahat edə bilər.

***- Ermənistanla Türkiyənin yaxınlaşması Rusiyanın maraqlarına cavab verirmi?***

- Söhbət Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşmasından gedirsə, o zaman Moskva ancaq sevinəcək, çünki hazırda o, Ukrayna istiqamətində çox məşğuldur və Cənubi Qafqazda vəziyyətin gərginləşməsi birmənalı olaraq onun maraqlarına uyğun deyil. Lakin Türkiyə öz təsirini Ermənistana da genişləndirməyə çalışsa və İrəvana sərt təzyiq göstərsə, hadisələrin bu cür inkişafı təbii ki, Rusiya rəhbərliyinin xoşuna gəlməyəcək.

Buna baxmayaraq, təcrübənin göstərdiyi kimi, çox vaxt çox kəskin siyasi və iqtisadi ziddiyyətlərə baxmayaraq, Putin və Ərdoğan adətən sülh yolu ilə razılaşa bilirlər.

***Müsahibə aldı - Mətanət Nəsibova***
***Tərcümə etdi - Elçin Bayramlı***

# "ABŞ ermənipərəst mövqeyindən nə vaxt imtina edəcək?"

"ABŞ Dövlət Departamentinin Qafqazda danışıqlar üzrə baş müşaviri Endryu Şoferin regiona səfəri çox təəssüf ki, Azərbaycana yaxşı heç nə vəd etmir və ciddi narahatlıq doğurur. Bu da, ilk növbədə, Bayden administrasiyasının tutduğu qeyri-konstruktiv və açıq ermənipərəst mövqe ilə əlaqədardır". Bu fikirləri SİA-ya açıqlamasında Azərbaycan Naminə Alyans Partiyasının (ANAP) sədri Abutalıb Səmədov bildirib.

Partiya sədrinin sözlərinə görə, bu fəallığın əsas məqsədinin zəiflədiyi güman edilən Rusiyanı regiondan tədricən sıxışdırıb çıxarmaq olduğu şübhə doğurmur: "Əgər ABŞ Azərbaycana və Ermənistana münasibətdə ədalətli mövqe tutsaydı, təbii ki, biz buna sevinərdik və bu planların baş tutması üçün əlimizdən gələn yardımı göstərərdik. Ancaq təəssüf ki, dünyanın supergücü qətiyyən ədalətli davranmır və Azərbaycana, bütövlükdə türk dünyasına qarşı hər birimizdə (qərbin 5-ci kolonu istisna olmaqla) hiddət doğuran addımlar atmaqda davam edir. Bizi narahat edən əsas məsələlərin bir neçəsini sadalayaq: Birincisi, ABŞ-ın Türkiyəni regiona və Azərbaycan-Ermənistan münaqişəsinə yaxın buraxmaq istəməməsi və onu hər vasitə ilə uzaqlaşdırmaq cəhdləri. Hələ ikinci Qarabağ müharibəsinin son günlərində ABŞ prezidentinin köməkçisi Robert O "Brayen bəyan etmişdi ki, "Türkiyənin sülhyaratma və vasitəçilik prosesində iştirakı barədə verilən "uğursuz təkliflər" ABŞ və Ermənistan üçün qəbuledilməzdir!". Eyni mövqeyi 17 noyabr 2020-ci il tarixdə Parisdə fransalı həmkarı ilə görüşdən sonra dövlət katibi Pompeo da sərgiləmişdi və bəyan etmişdi ki, "Minsk qrupunun həmsədrləri olan ABŞ və Fransa danışıqlarda Rusiya və Türkiyənin yeganə vasitəçi olmasına imkan verməyəcəklər!". İkinci narahatlıq doğuran məqam ABŞ-ın dəfələrlə Qarabağ münaqişəsinin həll olunmadığını bəyan etməsi və Qarabağa yüksək status verilməsini tələb etməsidir. 2021-ci ilin fevralında Müdafiə Nazirliyinin tabeliyindəki qurumlardan birində keçirilən müzakirələrdən sonra "Azərbaycan üçün Deyton sazişi" təklifinin verilməsi ciddi narahatlıq doğurmaya bilməz. Çünki, bu təklifə bənzəyən və 1998-ci ilin noyabrında təqdim olunan "Ümumi dövlət" variantı məğlub durumda olan Azərbaycan rəhbərliyi tərəfindən qətiyyətlə rədd edilmişdi. İndi 44 günlük müharibədə qazanılan möhtəşəm qələbədən sonra ABŞ müzakirəsi belə mümkün olmayan belə bir təklifi səsləndirməyə cəsarət edir. Ermənistan Baş nazirinə edilən- "plankanı bir az endirmək" məsləhətinin kökündə də bu münasibət durur. Təklif olunur ki, ermənilər "Qarabağın müstəqilliyi" fikrindən imtina etsinlər və guya Azərbaycanın ərazi bütövlüyünü və ermənilərin təhlükəsizliyini təmin edən bu cür variantlarda israr etsinlər. Nəhayət, hamımızı düşündürən bir suala cavab verməyə çalışaq. Gerçəkdən, Amerika Birləşmiş Ştatları Güney Qafqazda sülhün, əmin-amanlığın olmasında maraqlıdırmı? Şübhəsiz ki, maraqlıdır. Ancaq çox təəssüf ki, bunu Azərbaycanın ədalətli mövqeyini, maraqlarını gözardı etməklə, ermənilərin beynəlxalq hüquqa zidd olan istəklərini əsas götürməklə reallaşdırmaq istəyir. Biz isə qətiyyən bununla razılaşa, buna imkan verə bilmərik".



***Gülyana***

Səs
27 aprel
2022-ci il

# "Barselona" bu futbolçuya 1 milyard avro qiymət qoydu!




"Barselona" ulduz futbolçusu Ronald Arauxo ilə yeni müqavilə imzalayıb. Bu barədə klubun rəsmi saytı məlumat yayıb. Uruqvaylı müdafiəçi ilə bağlanan yeni sözləşmənin müddəti 2026-cı ilə qədər nəzərdə tutulub. Həmçinin sözləşmədə o da qeyd olunub ki, 23 yaşlı futbolçunu transfer etmək istəyən klublar 1 milyard avro təminat ödəməli olacaqlar.

Qeyd edək ki, Arauxo 2018-ci ildən "Barselona"da oynayır. O, bu mövsüm 30 matçda 4 qol vurub.

## Avropa uşaq bezlərindən imtina edir...

Avropa minlərlə zərərli kimyəvi maddəni qadağan etmək qərarına gəlib. SİA-nın əldə etdiyi məlumata görə, "The Guardian" xəbər verir ki, bu barədə Avropa Komissiyasının rəsmi saytında dərc edilmiş "məhdudiyyətlərin yol xəritəsi"ndə deyilir. Beləliklə, istifadə məhdudiyyəti altına xərçəng, hormonal pozğunluqlar, reproduktiv pozğunluqlar, piylənmə, diabet və digər diaqnozlarla əlaqəli kimyəvi maddələr düşəcək. Siyahıya 12 minə qədər zəhərli element daxil edilə bilər. Avropa Ətraf Mühit Bürosu yeni planı "tarixdəki ən böyük kimyəvi qadağa" adlandırıb. Qeyd edək ki, ilk dəfə olaraq, məhdudiyyətlər alov gecikdiricilərə, bisfenollara, PVC plastiklərə və hətta uşaq bezinə də şamil ediləcək Qadağa həmçinin kosmetika, boyalar, təmizləyici məhsullar, yapışdırıcılar və pestisidlərin istehsalına təsir göstərə bilər.

Bu arada "Cefic" ticarət qrupu qeyd edib ki, zəhərli elementlərdən qurtulmaq qlobal kimya sənayesinin illik mənfəətinin dörddə birindən çoxuna təsir edəcək ki, bu da təqribən 500 milyard avro təşkil edir. Bu gün alimlər hesab edirlər ki, planetin kimyəvi çirklənməsi qlobal ekosistemlərin məhvi ilə nəticələnən səviyyəni artıq keçib.



Daha bir maraqlı nüans: bir müddət bundan əvvəl İspaniyada günəşdən qoruyucuların tərkibindəki kimyəvi maddələrin okean üçün təhlükə yaratdığını aşkar edilib. Mütəxəssislər hesab edirlər ki, bu cür kimyəvi maddələr yosunların fotosintez və çoxalma qabiliyyətinə mane ola bilər və bu da potensial olaraq sualtı ekosistemləri məhv edə bilər.

***Əli Babayev***

## Salyan sakini keçmiş kürəkənini qətlə yetirib



Salyanda 37 yaşlı şəxs qətlə yetirilib. APA-nın yaydığı məlumatda deyilir ki, hadisə Salyan rayonunun Qarabağlı kəndində qeydə alınıb.

Həmin kəndin sakini, 1952-ci il təvəllüdlü Əliyev Məlikağa Əşrəf oğlu öz evində keçmiş kürəkəni Qarabağlı kənd sakini, 1985-ci il təvəllüdlü Məlikov Faiq Mətləb oğlunu aralarında yaranmış münaqişə zəminində bıçaqla qətlə yetirib. M.Əliyev polis tərəfindən saxlanılıb. Faktla bağlı Salyan Rayon Prokurorluğunda cinyət işi açılıb, araşdırma aparılır.

## Əqli gücü artırmaq üçün nə etməliyik?

### PSİXOLOQ AÇIQLADI





"Ümumiyyətlə, beyin inkişafı ana bətnindən başlayır. Daha sonra uşaqlarda əqli gücü artmasına düzgün qidalanma, yuxu rejimi və ən əsası oyunlar ən çox təsir göstərən faktorlardır. Uşağın beyin inkişafı üçün ilk 3 il qızıl dövrlər sayıla bilər". Bu sözləri SİA-ya açıqlamasında klinik psixoloq, Narınc Psixologiya Mərkəzinin təsisçi rəhbəri, Psixologiya Elmi-Tədqiqat İnstitutunun "Yaş və İnkişaf Psixologiyası Şöbəsi"nin kiçik elmi işçisi Narınc Rüstəmova bildirib.

Onun sözlərinə görə, bu müddətdə əqli inkişaf olduqca sürətli gedir: "Uşağın verdiyi saysız hesabsız suallar böyükləri tərəfində təmkinlə və ətraflı şəkildə cavablandırılmalıdır. Çünki dünyanı, ətrafı kəşf etməkdə olan bir uşaq üçün bunun əhəmiyyəti böyükdür. Ümumiyyətlə, zəka inkişafı 15-18 yaşına qədər davam edir. Ancaq bundan sonrasında da tamam dayanmır son tədqiqatlar göstərir ki, 30 yaşa qədər zəka inkişafı gedə bilir, ancaq daha yavaş, daha zəif formada. Uşağın zəka inkişafı üçün oynadığı oyunların, yaşıdları ilə ünsiyyət qurabilmə bacarıqlarının, kiçik böyük motorikasının yaşına uyğun səviyyədə olması vacib nüansdır. Müraciətlərə baxarkən görürük ki, bu gün nitqi olmayan və yaxud psixi və nitq inkişafı öz yaşından aşağı olan uşaqlar gec yeriməyə başlamışlar, sərbəst şəkildə otura bilmək prosesi gecikmişdir, yeriyərkən tez tez yıxılırlar, geyinmək-soyunmaq, cəngəl-qaşıq, qələm tuta bilmək qabiliyyətləri zəifdir və ya nitqini 3-4 yaşından sonra açmışdır. Əslində bunlar həmısı birbaşa siqnal olmalıdır valideynlərə. İnkişaf etablarında ləngimə hiss edildiyi anda mütəxəssis yardımı almaq vacibdir.

Bir də ən önəmli nüansı vurğulamaq istəyirəm uşaqlaırn əqli inkişafına mənfi təsir göstərən faktor, günümüzün bəlası sayıla biləcək telefon, televizor aludəçiliyidır. Valideynlər uşaq sakit dursun işlərimi görüm, yeməyini yesin və s səbəblərlə körpəliyindən uşaqları tv və telefon qarşısında qoyurlar. Bu kimi cihazlar birtərəfli ünsiyyətdir. Körpə ordan informasiyanı alır, hələ necə bir informasiyanı alır o da sual altındadır, amma qarşısında onnan sən də danış, sən də mənə informasiya ötür deyə təhrik edən olmur. Belə olduğu təqdirdə uşaqlarda qapanma, ləngimə gedir və tənbəlləşirlər. Çox yaxşı olardı ki, uşaqlar ilk 3 il ərzində telefondan uzaq dursunlar. Canlı ünsiyyət, yaşıdları ilə vaxt keçirmək, fiziki aktiv oyunlar qədər heç nə uşaqların inkişafına gözəl təsir edə bilməz".

***Səbinə Hüseynli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**